RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 103 (8696) CÜMƏ, 21 may 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır

Mayın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda müzakirələri keçirilib.



AZƏRTAC xəbər verir ki, müzakirələri açan Dünya Bankının sabiq vitse-prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmail SERAGƏLDİN** çıxış edərək dedi:

- Cənab Prezident, Zati-aliləri, xanımlar və cənablar! Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri və dostları!

Bu, mərkəz üçün böyük bir gündür. Biz çox şadıq ki, Prezident İlham Əliyev bizim dialoqa qoşulur və Azərbaycan, eləcə də regionla bağlı öz planları və istəklərini bizimlə bölüşür. Cənab Prezident, səkkiz il öncə, Siz dahi Azərbaycan şairi Nizami Gəncəvinin irsini tanıtmaq üçün Beynəlxalq Mərkəzin yaradılmasına dair tapşırıq verdiniz. Bu quruma beynəlxalq üzvlər qoşuldu, onun İdarə Heyəti yaradıldı. Daha sonra mərkəzin işini və proqramını müəyyən etmək üçün həmsədrlər seçildi və baş katib təyin olundu.

Cənab Prezident, Siz bizə etimad göstərdiniz və ümid edirik, biz Sizin etimadınızı doğrulda bildik. Səkkizillik dövrdə çox işlər görülüb, Siz də onlara böyük dəstək vermisiniz. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi beynəlxalq səviyyədə get-gedə daha çox tanınır. Bakı Qlobal Forumu regionda birinci dərəcəli tədbirə çevrilib və beynəlxalq təqvimdə xüsusi yer tutmağa nail olub. Dünyanın bir çox tanınmış şəxsləri tədbirlərdə iştirak edib. Forumdan başqa, mərkəz bir çox digər tədbirləri də təşkil etdi, Balkanları, Cənubi Qafqazı və Avropanı müzakirəyə çıxartdı. Daha sonra təşkilatımız beynəlxalq fəaliyyətini genişləndirərək, ABŞ və BMT ilə əlaqələr qurmaq strategiyasını qəbul etdi və daha da inkişaf edən Çinə də diqqət yetirməyə başladı.

Cənab Prezident, bütün sahələrdə biz Nizaminin irsini və Azərbaycanın zəngin mədəniyyətə malik ölkə kimi mövqeyini təşviq etmişik. Biz bəşəriyyətin üzləşdiyi çağırışların müzakirə edildiyi platformaya çevrilmişik. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tədris, dözümlülük, dialoq və anlaşma ünvanı kimi tanınmağa başladı. Lakin bundan sonra pandemiya baş verdi. Biz 2020-ci ildə keçiriləcək Bakı Qlobal Forumunu təxirə salmaq məcburiyyətində qaldıq. Bununla belə, yəqin Siz məmnunluqla qəbul edərsiniz ki, 2021-ci ilin sonrakı aylarında Bakı Qlobal Forumunun çox uğurla keçirilməsində israrlıyıq. Biz İdarə Heyətinin təlimatları ilə və baş katib Rövşən Muradovun rəhbərlik etdiyi katibliklə birgə "Bakı Qlobal Forumu 2021"in məzmunu və təşkili sahəsində Hikmət Hacıyev və Sizin Protokol xidmətinizlə sıx işləyirik ki, tədbirimiz təqvimə və istəklərimizə uyğun keçsin.

COVID-19 pandemiyasına, məhdudiyyətlərə və səfərlərin təxirə salınmasına baxmayaraq, mərkəzimiz çox fəal işləyir. Biz yeni texnologiyalardan tam yararlanmaqla öz səylərimizi göstəririk. Biz 28 konfransa, 90 sessiyaya evsahibliyi etdik. Tədbirlərimizdə 370 məruzəçi çıxış edib, 60 ölkədən iştirakçılar bizə qoşulub. İstənilən mövzuları əhatə etmişik: pandemiya qarşısında qlobal həmrəylikdən tutmuş, formalaşan dünya nizamı və multilateralizmin gücləndirilməsi yollarına qədər. Ərzaq təhlükəsizliyi, təhsil məsələləri, sülhün əldə olunmasında qadınların rolu da müzakirəyə çıxarılıb. Bütün bu işləri görərkən biz mötəbər təşkilatlarla, tanınmış laureatlarla və şəxslərlə tərəfdaşlıq qurmuşuq. Dostlarımız və tərəfdaşlarımızın sayını iki dəfə artırmışıq. Biz Çindən olan nümayəndəyə - elmlər doktoru Şana bizim beynəlxalq dostlar şuramıza həmsədrlik etdiyinə görə minnətdarıq.

Bütün bu tədbirlərlə yanaşı, biz pandemiyaya və onun fəsadlarına qarşı mübarizədə göstərilən səylərdə və həmrəylik təşəbbüslərində çox fəalıq. İnanırıq ki, Zati-aliləriniz, bu işlə əlaqədar çox yerlərdən müsbət rəy alıb. Biz, həmçinin bir çox materialları çap edib yaymışıq. Bu işə bir çox yerli tanınmış şəxsləri cəlb etmişik. Fəaliyyətimiz media tərəfindən də dəyərləndirilib. Bir ildə 12 təşəkkür məktubu almışıq. Onların əksər hissəsi "Ehtiyacı olan insanlara yardım" təşəbbüslərinə görə təqdim edilib. Hazırda İngiltərənin sabiq Baş naziri Qordon Braun bizim adımızdan 7-lər və 20-lər Qrupuna təqdim ediləcək məktubun yekun variantı üzərində çalışır.

Ötən ilə nəzər saldıqda, deyə bilərik, bu dövr mərkəzin artan beynəlxalq nüfuzu ilə yaddaqalan, çox intensiv iş ilə seçilən, mühüm beynəlxalq təşkilatlarla və dünyanın elmlər akademiyaları, elmi təsisatları ilə əməkdaşlığın genişləndiyi il olub. Dünya mətbuatında da mövqeyimizi gücləndirdik. Ümid edirik ki, sonuncu görüşdə Zati-alinizə haqqında danışdığımız işləri gələn həftələr ərzində başa çatdıracağıq.

Cənab Prezident, mən nitqimi çox davam etdirə bilərdim. Lakin, bilirəm ki, hamı məhz Sizi dinləməyi çox arzulayır. Söz verirəm ki, yaxın vaxtlarda işimiz barədə hesabatı yekunlaşdırıb diqqətinizə təqdim edəcəyik və onu bu il Qlobal Forumda paylayacağıq. Ümid edirik ki, Zati-aliniz mərkəzin həm pandemiyadan əvvəlki, həm də sonrakı fəaliyyətindən tam razı qalacaq.

İndi isə icazənizlə mən sözü hörmətli xanım həmsədr Vayra Vike-Freyberqaya verirəm.

Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

Latviya Respublikasının sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **Vayra Vike-FREYBERQA** çıxış edərək dedi:

- Zati-aliləri, cənab Prezident! Xanımlar və cənablar!

Biz bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev arasında dialoqda iştirak etməkdən böyük iftixar hissi duyuruq. Bu görüşə Prezidentin nitqi ilə başlayacağıq. Sonra isə sual-cavablara keçəcəyik. Biz dəvətimizi qəbul etdiyinə görə cənab Prezidentə minnətdarıq.

Cənab Prezident, dünyanın bu çətin durumunda Azərbaycanın mövqeyi, ölkənin gələcəyinə dair planlarımızla və onların dünya gündəliyinə necə uyğunlaşması ilə əlaqədar Sizin mülahizələrinizi səbirsizliklə gözləyirik. Cənab Prezident, şərhlərinizi eşitməyi səmimiyyətlə arzulayırıq.

Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- Çox sağ olun. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin hörmətli həmsədrləri, xanım Vike-Freyberqa və cənab Seragəldin.

İlk öncə, mən bu gün keçirilən müzakirələrin bütün iştirakçılarını salamlamaq istərdim. Fürsətdən istifadə edərək Nizami Mərkəzinin həmsədrinə və üzvlərinə bu müzakirələri başlatdığına görə təşəkkürümü bildirmək istərdim. Çünki hesab edirəm ki, bu, çox yerinə düşən tədbirdir. Təklif etdiyiniz mövzuya gəldikdə isə, "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri", fikrimcə, qlobal gündəlikdə duran mühüm məsələlərdəndir, çünki bu yaxınlarda Cənubi Qafqaz regionunda kəskin dəyişikliklər oldu. Əlbəttə ki, yeni vəziyyət yeni yanaşmaları tələb edir.

Lakin, əvvəlcə, mən pandemiya dövründə çox yaxşı fəaliyyətinə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzini təbrik etmək istəyirəm. Bu mərkəz yeni şəraitə özünü çox müdrik formada uyğunlaşdırdı. Pandemiya ilə bağlı vəziyyətdən asılı olmayaraq, öz fəaliyyətini yeni formada davam etdirdi. Eyni zamanda, bu fəal işin aparıldığı səkkiz il ərzində mərkəz dünyada aparıcı beynəlxalq təsisatlardan birinə çevrilmişdir. Onun geniş fəaliyyəti, əslində, dünyada sülh, əməkdaşlıq, təhlükəsizlik və sabitlik işinə xidmət edir. Mərkəzin üzvləri ölkələrinə, yaxud beynəlxalq təşkilatlara uzun illər rəhbərlik etmiş məşhur dünya siyasətçiləridir. Sizin təcrübəniz həqiqətən unikaldır. Bir sözlə, bu cür təcrübənin bir araya toplanması, hesab edirəm ki, bugünkü dünyada nadir hadisədir.

Nəyin baş verdiyi və nəyin baş verəcəyi ilə bağlı Azərbaycanın mövqeyinə gəldikdə, əlbəttə ki, əvvəlcə, demək istərdim ki, regionda son hadisələr, İkinci Qarabağ müharibəsi vəziyyəti tam dəyişdi. Bu səbəbdən, Cənubi Qafqaz üçün yeni yanaşmaya, yeni gündəliyə ehtiyac duyulur.

"Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" mövzusunda müzakirəni yüksək dəyərləndirirəm, çünki bizim məhz buna ehtiyacımız var. Demək olar ki, 30 il çəkən işğal faktı səbəbindən, Azərbaycan öz mövqeyini birmənalı şəkildə bəyan etdi ki, biz ərazilər azad olunmayana qədər Ermənistanla əməkdaşlıq etməyəcəyik. Hesab edirəm, Ermənistanın özü də başa düşür ki, onlar çox böyük səhvə yol veriblər. Onlar vaxt itirdilər. Əgər bugünkü Ermənistandakı vəziyyətə nəzər salsaq, görərik ki, Ermənistan müstəqilliyi qazanan zaman ilə müqayisədə vəziyyət daha ağırdır. Çünki bu gün Ermənistanın ordusu belə yoxdur. O, tamamilə məhv edilib. Ölkə altı aydan çoxdur ki, daimi siyasi böhran içindədir. Cəmiyyətdə böyük dərəcədə inamsızlıq yaranıb, qarşılıqlı ittiham irəli sürülür. Bəzi siyasi liderlərin ritorikası hər hansı bir qəbul edilən çərçivədən tam uzaqdır.

Bir sözlə, onlar vaxt itirdilər. Onlar Azərbaycanın enerji və daşımaların inkişafı təşəbbüslərindən məhrum oldular. Nəhayət, onlar işğal etdikləri əraziləri itirdilər. O ərazilər ki, onlara nə tarixi nöqteyi-nəzərdən, nə də ki, beynəlxalq hüquq baxımından məxsus deyildi. İndi isə, münaqişə başa çatdıqdan sonra, Dağlıq Qarabağ münaqişəsi, ilk növbədə, Azərbaycan tərəfindən, sonra isə ötən ilin 10 noyabr tarixli birgə Bəyanat ilə artıq həll olunub.

Biz indi gələcəyə baxmalıyıq. 30 illik işğala, azad olunmuş ərazilərdə genişmiqyaslı dağıntılara və onların məhv etdiklərinə baxmayaraq, Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır. Ümid edirik ki, vaxt gələcək və biz, sözün əsl mənasında, Cənubi Qafqazda fəal əməkdaşlıqdan və inteqrasiyadan danışacağıq. Biz artıq çox mühüm təkliflərlə və təşəbbüslərlə çıxış etmişik və yeri gəlmişkən, onlar 10 noyabr 2020-ci il tarixli birgə Bəyanatda da əks olunub. Bu, xüsusən də, kommunikasiyaların və yeni daşımalar dəhlizlərinin açılması ilə bağlıdır. Sizə deyə bilərəm ki, bu layihənin həyata keçirilməsi ilə bağlı iş artıq başlayıb. Azərbaycan bu məqsədlə artıq texniki və maliyyə imkanlarını ayırıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bütün region ölkələri üçün yeni imkanlar yaranacaq. Bu səbəbdən, bildirmək istəyirəm ki, Azərbaycan əməkdaşlığa və ümumi gələcəyimizin planlaşdırılmasına açıqdır, çünki biz istəsək də, istəməsək də qonşuyuq və yanaşı yaşamalıyıq və bir daha bu birgə yaşamanı öyrənməliyik. Bu, asan deyil. Burada emosiyalar var. Xüsusən də Azərbaycan xalqı azad edilmiş torpaqlara səfərlər etdiyi zaman və tam yerlə yeksan olunan yerləri görəndə, siz yəqin ki, təsəvvür edə bilərsiniz, hansı hissləri keçirirlər. Lakin siyasətçilərin rolu öz gündəliklərini müdafiə etməkdən və yalnız qarşılıqlı fəaliyyət sayəsində regionda dayanıqlı inkişafın, sülhün və təhlükəsizliyin olacağını izah etməkdən ibarətdir.

Bəlkə də, yaxşı olardı mən burada çıxışımı dayandırım. Çünki siz bilirsiniz, bir neçə Bakı Qlobal Forumu zamanı mən bütün tədbirlərdə Dağlıq Qarabağ haqqında danışmışam. Ona görə siz dəqiq bilirsiniz nə baş verib, necə baş verib, nəticələr nədir. Hesab edirəm ki, bunu təkrar etməyə ehtiyac yoxdur. Daha yaxşı olardı ki, dialoqumuza çox vaxt ayıraq.

Çox sağ olun, istədiyiniz suala cavab verməyə hazıram.

* * *

Prezident İlham Əliyev tədbir iştirakçılarının suallarını cavablandırdı *(Tədbirdən geniş hesabat qəzetin növbəti nömrəsində dərc ediləcək).*

## Tofiq Quliyevin abidəsinin ucaldılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq görkəmli Azərbaycan bəstəkarı, Xalq artisti, Dövlət Mükafatı laureatı Tofiq Ələkbər oğlu Quliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Bakı şəhərində görkəmli Azərbaycan bəstəkarı Tofiq Quliyevin abidəsi ucaldılsın.
2. Bakı Şəhər İcra Hakimiyyəti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə Tofiq Quliyevin abidəsinin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2021-ci il*

◆ Müəllifi İlham Əliyevdir

## Qələbəni bizə yaşadanları "YAŞAT"!

### Azərbaycan Prezidentinin yaratdığı Fond şəhidlərimizin əmanətlərini qoruyur, qazilərimizə böyük dəstək göstərir



*"Müharibə bitmişdi...*

*Tariximizin ən böyük qələbəsini qazanmışdıq, Şanlı Zəfərimizlə öyünürdük. Amma bu qələbəni bizə yaşatmaq üçün tərəddüd etmədən üç minə yaxın igid oğul canından keçmişdi. Vətən qarşısında müqəddəs borcları yerinə yetimişdilər o qəhrəmanlar. Geridə qoyub getdikləri miraslarını, əmanətlərini qorumaq, onları yaşatmaq bizim boynumuza yazılan haqq işi oldu".*

Həmsöhbətimiz Ülvi Mehdiyevdir. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin rəhbəri olmaqla yanaşı o, həm də böyük qələbəni bizə yaşadanların ailə üzvlərinə dəstək verən "YAŞAT" Fondunun vəsaitinin sərəncamçısıdır. Elə onunla geniş söhbətmiz də fondun şəhid ailələrinə, qazilərimizə, onların ailə üzvlərinə göstərdiyi hərtərəfli dəstək, diqqət və qayğının ümumi mənzərəsini əhatə etdi.

### Şəffaf, effektiv və əlçatan platforma

Öncə fondun yaradılması zərurətindən danışan həmsöhbətimiz deyir ki, ölkəmizdə hər zaman şəhid ailələrinə, müharibə əlillərinə, onların ailə üzvlərinə dəstək olan sosial proqramlar mövcud olub və bu gün də dövlətin bu kateqoriyadan olan vətəndaşlarımıza diqqət və qayğısı dünya dövlətləri üçün nümunədir.

**Ardı 6-cı səh.**



# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381,1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440) aşağıdakı dəyişikliklər edilsin:

1. 18.5-ci maddədə "Hüquqi" sözü "Bu Məcəllənin 127-4.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, hüquqi" sözləri ilə əvəz edilsin.

2. 18.6-cı maddədə "Səlahiyyətli" sözü "Bu Məcəllənin 127-4.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, səlahiyyətli" sözləri ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 57.7-ci maddə əlavə edilsin:

"57.7. Bu Məcəllənin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xəta haqqında elektron protokol və ya inzibati tənbeh vermə haqqında elektron qərar aşağıdakı hallarda da rəsmi qaydada verilmiş hesab olunur:

57.7.1. inzibati xəta törətmiş şəxsin elektron kabinetində olan mobil telefon nömrəsinə inzibati xəta haqqında bu Məcəllənin 127-5.1.2-ci maddəsində nəzərdə tutulan qaydada SMS məlumat çatdırıldığı vaxtdan;

57.7.2. inzibati xəta törətmiş şəxs bu Məcəllənin 127-5.1.1-ci maddəsində nəzərdə tutulan qaydada onun elektron kabinetinə yerləşdirilmiş inzibati xəta haqqında elektron protokol və ya inzibati tənbeh vermə haqqında elektron qərar və onun əlavələri ilə tanış olduğu vaxtdan (elektron kabinetdə mobil telefon nömrəsi olmadığı halda).".

4. 76.1-ci maddənin ikinci cümləsinə "göstəriciləri ilə" sözlərindən sonra ", müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində, habelə digər dövlət informasiya sistemlərində (ehtiyatlarında) aşkar olunan məlumatlarla" sözləri əlavə edilsin.

5. Aşağıdakı məzmunda 81-1-ci maddə əlavə edilsin:

**"Maddə 81-1 Dövlət informasiya sistemlərinin (ehtiyatlarının) məlumatları**

81-1.1. Bu Məcəllənin 191.2-ci, 192.1-ci, 192.3-cü, 194-cü, 195.2-ci, 469.2-ci, 540.1-ci və 540.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətaların aşkar edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminin, habelə digər dövlət informasiya sistemlərinin (ehtiyatlarının) məlumatlarından istifadə edilir.

81-1.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminin, habelə digər dövlət informasiya sistemlərinin (ehtiyatlarının) məlumatları inzibati xəta haqqında elektron protokolda və ya inzibati tənbeh vermə haqqında elektron qərarda qeyd edilir.".

6. 99.1.1-ci maddəyə "köməyi" sözündən sonra ", eləcə də müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi, habelə digər dövlət informasiya sistemləri (ehtiyatları) vasitəsi" sözləri əlavə edilsin.

7. Aşağıdakı məzmunda 16-1-ci fəsil əlavə edilsin:

**" FƏSİL 16-1**

**Əmək, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər və icbari sığorta sahələrində qanunvericiliyin pozulması ilə əlaqədar olan inzibati xətalarla bağlı işlərə müvafiq informasiya sistemlərindən (ehtiyatlarından) istifadə edilməklə baxılmanın xüsusiyyətləri**

**Maddə 127-3. Əmək, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər və icbari sığorta sahələrində qanunvericiliyin pozulması ilə əlaqədar olan inzibati xətalarla bağlı işlərə baxılmanın ümumi qaydası**

Bu Məcəllənin 191.2-ci, 192.1-ci, 192.3-cü, 194-cü, 195.2-ci, 469.2-ci, 540.1-ci və 540.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə, bu fəsillə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllə ilə müəyyən edilmiş qaydada baxılır.

**Maddə 127-4. İnzibati xəta müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi, habelə digər dövlət informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edildikdə icraatın aparılması qaydası**

127-4.1. Bu Məcəllənin 191.2-ci, 192.1-ci, 192.3-cü, 194-cü, 195.2-ci, 469.2-ci, 540.1-ci və 540.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi, habelə digər dövlət informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edildikdə, inzibati xətanı törətmiş şəxsin iştirakı olmadan real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada elektron sənəd şəklində hüquqi şəxslər, o cümlədən onların vəzifəli şəxsləri barəsində inzibati xəta haqqında elektron protokol tərtib olunur, fiziki və vəzifəli şəxslər (hüquqi şəxs barəsində elektron protokol tərtib edilmədiyi halda) barəsində isə inzibati tənbeh vermə haqqında elektron qərar çıxarılır və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq səlahiyyətli əməkdaşının gücləndirilmiş elektron imzası ilə təsdiqlənir. Təsdiq edilmiş həmin protokol və ya qərar real vaxt rejimində elektron qaydada məlumatlar əlavə edilməklə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərilir.

127-4.2. İnzibati xəta haqqında elektron protokolda aşağıdakı məlumatlar göstərilir:

127-4.2.1. protokolun tərtib edildiyi tarix və vaxt;

127-4.2.2. inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan orqanın (qurumun) və həmin protokolu tərtib etmək üçün istifadə edilən dövlət informasiya sisteminin (ehtiyatının) adı;

127-4.2.3. inzibati xətanın törədilməsi ilə bağlı müəyyən edilən (aşkar edilən) məlumatlar;

127-4.2.4. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan hüquqi şəxs haqqında məlumatlar (hüquqi şəxsin adı, VÖEN-i və hüquqi ünvanı);

127-4.2.5. inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsi və həmin maddə üzrə cərimənin məbləği;

127-4.2.6. bu Məcəllənin 127-4.5-ci və 127-4.6-cı maddələrinin izahı.

127-4.3. İnzibati tənbeh vermə haqqında elektron qərarda aşağıdakı məlumatlar göstərilir:

127-4.3.1. qərarın tərtib edildiyi tarix və vaxt;

127-4.3.2. inzibati xətalar haqqında işlər üzrə qərar qəbul etmək səlahiyyəti olan orqanın (qurumun) və həmin qərarı tərtib etmək üçün istifadə edilən dövlət informasiya sisteminin (ehtiyatının) adı;

127-4.3.3. inzibati xətanın törədilməsi ilə bağlı müəyyən edilən (aşkar olunan) məlumatlar;

127-4.3.4. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki və ya vəzifəli şəxs haqqında məlumatlar (adı, soyadı, atasının adı, FİN-i və yaşadığı ünvan, vəzifəli şəxsə münasibətdə habelə vəzifəsi);

127-4.3.5. inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsi;

127-4.3.6. inzibati cərimənin məbləği və ödənilməsi qaydası barədə məlumatlar;

127-4.3.7. inzibati tənbeh vermə haqqında elektron qərardan bu Məcəllənin 127-4.6-cı maddəsinə uyğun olaraq şikayətin verilməsi müddəti və qaydası.

127-4.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminin, habelə digər dövlət informasiya sistemlərinin (ehtiyatlarının) məlumatları inzibati xəta haqqında iş üzrə icraat başa çatanadək və hər bir halda inzibati xəta haqqında iş üzrə qərar barədə bu Məcəllənin 57-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırıldığı vaxtdan üç aydan az olmayan müddətdə saxlanılmalıdır.

127-4.5. Barəsində bu Məcəllənin 127-4.1-ci maddəsində nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında elektron protokol tərtib edilmiş hüquqi şəxs, o cümlədən onun vəzifəli şəxsi burada qeyd olunan inzibati cəriməni həmin protokol ona bu Məcəllənin 57-ci maddəsində nəzərdə tutulmuş rəsmi qaydada verildiyi vaxtdan on gün müddətində ödədikdə protokolla razılaşmış olur və həmin protokol eyni məzmunlu inzibati tənbeh vermə haqqında elektron qərar hesab edilir.

127-4.6. Barəsində bu Məcəllənin 127-4.1-ci maddəsində nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında elektron protokol tərtib edilmiş hüquqi şəxs bu Məcəllənin 127-4.5-ci maddəsində nəzərdə tutulmuş müddətdə cəriməni ödəmədikdə həmin protokol baxılması üçün bir gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən məhkəməyə göndərilir.

127-4.7. Bu Məcəllənin 127-4.1-ci maddəsinə əsasən inzibati xəta haqqında elektron protokol tərtib edildikdə və yaxud inzibati tənbeh vermə haqqında elektron qərar çıxarıldıqda inzibati cərimənin məbləği həmin inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsinin sanksiyasında nəzərdə tutulan cərimənin aşağı həddində müəyyən olunur.

**Maddə 127-5. İnzibati xəta haqqında protokol və inzibati xəta haqqında iş üzrə qərar barədə məlumatlandırma**

127-5.1. Bu Məcəllənin 127-4.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətaları törətmiş şəxs inzibati xəta haqqında elektron protokol və ya inzibati tənbeh vermə haqqında elektron qərar barədə aşağıdakı qaydada məlumatlandırılır:

127-5.1.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi inzibati xəta haqqında elektron protokolu və ya inzibati xəta haqqında iş üzrə qərarı və onların əlavələrini barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin elektron kabinetində dərhal yerləşdirir və elektron ünvanına (olduğu halda) göndərir;

127-5.1.2. eyni zamanda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi şəxsin elektron kabinetində olan mobil telefon nömrəsinə inzibati xəta törətməsi, törətdiyi xətanın qısa məzmunu, xətanın törədildiyi yer və vaxt, bu Məcəllənin hansı maddəsinə əsasən inzibati məsuliyyətə cəlb olunması, cərimənin məbləği, inzibati xəta haqqında elektron protokolun və ya inzibati xəta haqqında iş üzrə qərarın nömrəsi, həmin sənədlə və ona əlavə edilmiş materiallarla tanış ola biləcəyi elektron kabinetin internet ünvanı və daxilolma qaydası barədə ödənişsiz SMS məlumatı dərhal göndərir;

127-5.1.3. inzibati tənbeh vermə haqqında elektron qərar əlavə edilmiş materiallarla birlikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi tərəfindən kağız daşıyıcıda çap olunaraq, bu Məcəllənin 57.1-ci maddəsində nəzərdə tutulmuş rəsmi qaydada verilməsi üçün iki gün ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilir.

127-5.2. İnternet informasiya resursunda yaradılmış elektron kabinetdə şəxsin hansı tarixdə inzibati xəta haqqında elektron protokol və ya inzibati tənbeh vermə haqqında elektron qərar barədə bu Məcəllənin 127-5.1.1 - 127-5.1.3-cü maddələrində nəzərdə tutulmuş qaydada məlumatlandırılması haqqında qeyd yerləşdirilməlidir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi bu Məcəllənin 127-5.1.2-ci maddəsində nəzərdə tutulmuş SMS məlumatın şəxsə çatdırıldığı vaxt barədə və bu Məcəllənin 127-5.1.1-ci maddəsində nəzərdə tutulan qaydada onun elektron kabinetinə yerləşdirilmiş inzibati xəta haqqında elektron protokol və ya inzibati tənbeh vermə haqqında elektron qərar və onların əlavələri ilə tanış olduğu vaxt barədə məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərməli, həmçinin həmin məlumatları şəxsin elektron kabinetinə yerləşdirməli və onun elektron ünvanına (olduğu halda) göndərməlidir.

127-5.3. İnzibati xəta haqqında elektron protokolun və ya inzibati tənbeh vermə haqqında elektron qərarın bu Məcəllənin 57.1-ci maddəsində nəzərdə tutulmuş qaydada "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sifarişli poçt göndərişi vasitəsilə rəsmi çatdırılması barədə məlumatlar bir gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə göndərilir.

127-5.4. Barəsində inzibati xəta haqqında elektron protokol və ya inzibati tənbeh vermə haqqında elektron qərar tərtib edilmiş şəxs bu Məcəllənin 57-ci maddəsi ilə müəyyən edilmiş qaydada məlumatlandırıldığı vaxtdan təyin olunmuş cəriməni bank, poçt, plastik kart və ya internet vasitəsilə ödəyə bilər.

**Maddə 127-6. İnzibati tənbeh vermə haqqında elektron qərardan şikayətə baxılma qaydası**

127-6.1. Barəsində bu Məcəllənin 127-4.1-ci maddəsində nəzərdə tutulmuş qaydada inzibati tənbeh vermə haqqında elektron qərar çıxarılmış fiziki şəxs qərarla razılaşmadığı hallarda həmin qərar ona bu Məcəllənin 57-ci maddəsi ilə müəyyən olunmuş rəsmi qaydada verildiyi vaxtdan iyirmi gün müddətində yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və ya məhkəməyə şikayət verə bilər. Şikayət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə və ya şəxsən verilə, yaxud poçt vasitəsilə göndərilə bilər.

127-6.2. Yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) inzibati xəta haqqında iş üzrə qərardan şikayət verildikdə, yuxarı səlahiyyətli orqan (vəzifəli şəxs) araşdırma aparmaqla qərarın ləğv edilməsi üçün əsaslar müəyyən etdikdə, inzibati xəta haqqında iş üzrə elektron qərarı ləğv edir, belə əsaslar müəyyən olunmadıqda isə inzibati xəta haqqında iş üzrə elektron qərarın dəyişdirilmədən saxlanılması barədə qərar qəbul edilir.

127-6.3. Bu Məcəllənin 127-6.2-ci maddəsində nəzərdə tutulmuş qərarlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində yerləşdirilir və barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə həmin qərar barədə bu Məcəllənin 57-ci maddəsində nəzərdə tutulmuş qaydada məlumat verilir.".

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 2 aprel 2021-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 287-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 287-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 76.1-ci maddəsinin ikinci cümləsində, 81-1.1-ci, 81-1.2-ci, 99.1.1-ci maddələrində, 127-4-cü maddəsinin adında, 127-4.1-ci maddəsinin birinci cümləsində (hər üç halda) və ikinci cümləsində, 127-4.4-cü, 127-4.6-cı, 127-5.1.1-ci, 127-5.1.2-ci, 127-5.1.3-cü (hər iki halda) maddələrində, 127-5.2-ci maddəsinin ikinci cümləsində (hər iki halda), 127-5.3-cü (hər iki halda) maddəsində, 127-6.1-ci maddəsinin ikinci cümləsində və 127-6.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 127-4.1-ci (üçüncü halda) və 127-4.6-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 127-5.1.3-cü (ikinci halda) və 127-5.3-cü (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 76.1-ci maddəsinin ikinci cümləsində, 81-1.1-ci, 81-1.2-ci, 99.1.1-ci maddələrində, 127-4-cü maddəsinin adında, 127-4.1-ci maddəsinin birinci cümləsində (hər iki halda), 127-4.4-cü, 127-5.1.3-cü maddələrində və 127-5.2-ci maddəsinin ikinci cümləsində (ikinci halda) "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 127-4.1-ci maddəsinin ikinci cümləsində, 127-5.1.1-ci, 127-5.1.2-ci maddələrində, 127-5.2-ci maddəsinin ikinci cümləsində (birinci halda), 127-6.1-ci maddəsinin ikinci cümləsində və 127-6.3-cü maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" sistemi nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 127-5.3-cü maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" sistemi nəzərdə tutulur.

2. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 aprel tarixli 1312 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.1-ci bəndə "97.1-ci maddələrində" sözlərindən əvvəl "76.1-ci maddəsinin ikinci cümləsində, 81-1.1-ci, 81-1.2-ci," sözləri, "127-1.2-ci (ikinci halda)" sözlərindən əvvəl "99.1.1-ci maddəsində," sözləri və "192.3" rəqəmlərindən əvvəl ",127-4-cü maddəsinin adında, 127-4.1-ci maddəsinin birinci cümləsində (hər üç halda) və ikinci cümləsində, 127-4.4-cü, 127-4.6-cı, 127-5.1.1-ci, 127-5.1.2-ci, 127-5.1.3-cü (hər iki halda) maddələrində, 127-5.2-ci maddəsinin ikinci cümləsində (hər iki halda), 127-5.3-cü (hər iki halda), 127-6.1-ci maddəsinin ikinci cümləsində və 127-6.3-cü maddələrində," sözləri əlavə edilsin;

2.2. 4.20-1-ci bəndə "Məcəllənin" sözündən sonra "127-4.1-ci (üçüncü halda), 127-4.6-cı," sözləri əlavə edilsin;

2.3. aşağıdakı məzmunda 4.14-1-ci, 4.15-2-ci, 4.20-2-ci və 4.20-3-cü bəndlər əlavə edilsin:

"4.14-1. həmin Məcəllənin 127-4.1-ci maddəsinin ikinci cümləsində, 127-5.1.1-ci, 127-5.1.2-ci maddələrində, 127-5.2-ci maddəsinin ikinci cümləsində (birinci halda), 127-6.1-ci maddəsinin ikinci cümləsində və 127-6.3-cü maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" sistemi nəzərdə tutulur;";

"4.15-2. həmin Məcəllənin 127-5.1.3-cü (ikinci halda) və 127-5.3-cü maddəsində (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzərdə tutulur;";

"4.20-2. həmin Məcəllənin 76.1-ci maddəsinin ikinci cümləsində, 81-1.1-ci, 81-1.2-ci, 99.1.1-ci maddələrində, 127-4-cü maddəsinin adında, 127-4.1-ci maddəsinin birinci cümləsində (hər iki halda), 127-4.4-cü, 127-5.1.3-cü maddələrində və 127-5.2-ci maddəsinin ikinci cümləsində (ikinci halda) "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi nəzərdə tutulur;

4.20-3. həmin Məcəllənin 127-5.3-cü maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" sistemi nəzərdə tutulur.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 287-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 18 may 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "ASAN ödəniş" sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2015-ci il 11 fevral tarixli 463 nömrəli Fərmanında və 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 287-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "ASAN ödəniş" sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 463 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 125; 2017, № 2, maddə 175, № 7, maddə 1349, № 11, maddə 2016; 2018, № 8, maddə 1689; 2019, № 4, maddə 660; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 aprel tarixli 1312 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.2-ci bəndə "qərarları" sözündən sonra ", Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokolları" sözləri əlavə edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "ASAN ödəniş" sistemi haqqında Əsasnamə" üzrə:

1.2.1. 1.2.1-ci yarımbəndə "qərarların" sözündən sonra ", Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokolların" sözləri əlavə edilsin;

1.2.2. 4.0.10-cu yarımbəndə "qərarı" sözündən sonra ", Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokolları" sözləri əlavə edilsin;

1.2.3. 4.0.11-ci yarımbəndə "qərar" sözündən sonra ", Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokol" sözləri əlavə edilsin;

1.2.4. 7.1.1-ci yarımbəndə "qərarı" sözündən sonra ", Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokolu" sözləri əlavə edilsin;

1.2.5. 7.1.5-1-ci yarımbəndə "foto" sözündən əvvəl "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokolun və ya inzibati tənbeh vermə haqqında elektron qərarın, habelə" sözləri əlavə edilsin;

1.2.6. 7.5-ci bəndə "məbləği," sözündən sonra "inzibati xəta haqqında elektron protokolun və ya" sözləri əlavə edilsin;

1.2.7. 7.9-cu bəndə "qərarla" sözündən sonra ", Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokolla" sözləri əlavə edilsin;

1.2.8. 7.10-cu bəndə "qərar" sözündən sonra ", Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokol" sözləri əlavə edilsin;

1.2.9. 7.18-ci bəndin birinci cümləsinə "qərarın" sözündən sonra ", habelə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokolun" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634; 2020, № 4, maddə 417) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.3.7-ci yarımbəndə "aparılması" sözündən sonra ", habelə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətaların aşkar edilməsi və bununla bağlı icraatın aparılması" sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 4.1.14-1-ci yarımbənd əlavə edilsin:

"4.1.14-1. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi;".

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 18 may 2021-ci il*

## S.X.Rüstəmxanlının “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Sabir Xudu oğlu Rüstəmxanlı “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2021-ci il*

# Azərbaycan Ordusunun təlimləri başa çatıb



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusunda qoşun növlərinin cəlb olunması ilə keçirilən təlimlər uğurla başa çatıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mayın 20-də komandir və rəis heyətinin iştirakı ilə təlimin yekunu ilə bağlı müşavirə keçirilib. Müşavirədə qoşunların, qərargahların təlimlərdə fəaliyyəti təhlil edilib və qarşıya qoyulan tapşırıqların icrası qiymətləndirilib.

# Azərbaycanın Baş naziri Moskvada naməlum əsgərin məzarını ziyarət edib







Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun Rusiya Federasiyasına rəsmi səfəri başlayıb.

AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti mayın 20-də Moskvada, Kremlin divarları yaxınlığında naməlum əsgərin məzarını ziyarət edərək önünə əklil qoyub.

# Azərbaycanın Baş naziri Əli Əsədov Rusiya Hökumətinin Sədri Mixail Mişustinlə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 20-də Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustinlə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsinin artırılmasına, iqtisadi və mədəni-humanitar sahələrdə əməkdaşlığa dair aktual məsələlər müzakirə olunub. Həmçinin koronavirus infeksiyası ilə birgə mübarizə məsələləri nəzərdən keçirilib.

Rusiya Hökumətinin Sədri Mixail Mişustin Baş nazir Əli Əsədovdan Rusiya Prezidenti Vladimir Putinin, eləcə də özünün salamlarını və ən xoş arzularını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırmağı xahiş edib. M.Mişustin ölkələrimiz arasında ticarət dövriyyəsinin yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdırıb. Rusiya Federasiyası Hökuməti Sədrinin sözlərinə görə, pandemiyaya baxmayaraq, bu ilin yanvar-mart aylarında ölkələrimiz arasında əmtəə dövriyyəsini təxminən 3,5 faiz artırmaq mümkün olub ki, bu da 680 milyon dollar təşkil edir. Azərbaycanda Rusiya kapitalı ilə işləyən 1000-ə yaxın şirkət, birgə müəssisə fəaliyyət göstərir.

M.Mişustin İkinci Qarabağ müharibəsində hərbi əməliyyatların dayandırılması ilə bağlı Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin imzaladıqları üçtərəfli bəyanatın Cənubi Qafqazın kompleks şəkildə inkişafı üçün imkanlar açdığını diqqətə çatdırıb, iqtisadi əlaqələrin genişlənməsinin, nəqliyyat və kommunikasiyaların açılmasının, yeni infrastruktur marşrutlarının yaradılmasının region ölkələrinin maraqlarına cavab verdiyini vurğulayıb.



Öz növbəsində Baş nazir Əli Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını M.Mişustinə çatdırıb. Vurğulayıb ki, Azərbaycan ilə Rusiya arasında əlaqələr iki ölkə prezidentlərinin qarşılıqlı etimada əsaslanan münasibətləri sayəsində yüksək səviyyədədir. Azərbaycan Rusiyanın 80-dən çox subyekti ilə iqtisadi əməkdaşlığı uğurla inkişaf etdirir. Ölkələrimiz arasında 230-dan çox hökumətlərarası və müəssisələrarası sənəd imzalanıb, altı “yol xəritəsi” həyata keçirilir.

Baş nazir qeyd edib ki, Azərbaycan Prezidenti və hökuməti 44 günlük müharibə zamanı Rusiya Federasiyasının rolunu yüksək qiymətləndirir, hərbi əməliyyatların yekununda imzalanmış üçtərəfli razılaşmanın bəndlərinin yerinə yetirilməsinə tərəfdardır.

Ə.Əsədov rusiyalı həmkarını Azərbaycana səfərə dəvət edib.

Danışıqların yekununda tərəflər arasında əməkdaşlığın inkişafına, o cümlədən rabitə və informasiya texnologiyaları, baytarlıq, gömrük, əqli mülkiyyət, qida təhlükəsizliyi və digər istiqamətlərə dair sənədlər imzalanıb.

# Azərbaycanın Baş nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti Moskva Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki “Azərbaycan” pavilyonunda olub







Mayın 20-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti Rusiyaya rəsmi səfər çərçivəsində Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki “Azərbaycan” pavilyonunda olub.

AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov “Azərbaycan” pavilyonunda əsaslı bərpa və təmirdən sonra yaradılmış şəraitlə tanış olub.

“Azərbaycan” pavilyonunun direktoru Səadət Qədirova Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin tarixi barədə məlumat verib. Bildirilib ki, “Azərbaycan” pavilyonu 2019-cu ilin noyabrında yenidən açılıb. Pavilyonun açılış mərasimində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Rusiya Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko iştirak ediblər.

Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa edilən “Azərbaycan” pavilyonu 1939-cu ildə tikilib. Milli pavilyonumuzda bərpa işləri onun binasının tarixi görünüşü, milli-memarlıq üslubu saxlanılmaqla həyata keçirilib. Hazırda burada yeddi zalda xalqımızın qədim tarixini, mədəniyyətini, ənənələrini əks etdirən eksponatlar sərgilənir. “Ticarət evi” zonasında isə Azərbaycan istehsalı olan məhsullar təqdim edilir.

# Baş nazir Əli Əsədova Rusiya İqtisadiyyat Universitetinin Fəxri doktoru adı verilib

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 20-də G.V.Plexanov adına Rusiya İqtisadiyyat Universitetində olub.





AZƏRTAC xəbər verir ki, Ulu Öndər Heydər Əliyevin 1970-ci illərdə gənclər və təhsil siyasətinin tərkib hissəsi kimi yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin ayrı-ayrı şəhərlərindəki ali təhsil müəssisələrində təhsil alıb Azərbaycana qayıdaraq müxtəlif sahələrdə çalışırlar. Baş nazir Əli Əsədov Ulu Öndərin təhsil almaq üçün ölkə xaricinə göndərdiyi gənclərdən biri olub və 1974-1978-ci illərdə Moskva Xalq Təsərrüfatı İnstitutu, hazırda isə Rusiya İqtisadiyyat Universiteti adlanan bu ali məktəbdə təhsil alıb.

Baş nazir Əli Əsədov Elmi Şurada çıxış edib və Ulu Öndər Heydər Əliyevin müstəqillik dövründə apardığı iqtisadi islahatların mahiyyəti və hədəfləri haqqında danışıb, hərtərəfli düşünülmüş neft strategiyasının bugünkü müsbət nəticələrini qeyd edib.

Baş nazir Prezident İlham Əliyevin bazar iqtisadiyyatı istiqamətində apardığı islahatlar, müasir tələblərə cavab verən enerji siyasətinin əsas prinsipləri və perspektivləri, investisiya mühiti barədə məlumat verib, iqtisadi və enerji siyasətinin qənaətbəxş sosial nəticələri haqqında danışıb, son illərdə Azərbaycanın yüksək beynəlxalq reytinqlər qazandığını qeyd edib.

G.V.Plexanov adına Rusiya İqtisadiyyat Universitetinin Elmi Şurasının qərarı ilə Baş nazir Əli Əsədova Fəxri doktor adı verilib və bugünkü tədbirdə doktorluq mantiyası ona təqdim olunub.

# Qazax Müəllimlər Seminariyası və “Bir müəllimin manifesti” təşəbbüsü

*Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ölkəmizin mədəniyyət paytaxtı Şuşanın Cıdır düzündə 30 ildən çox fasilədən sonra keçirilən “Xarıbülbül” festivalı onu izləyən hər Vətən övladının qəlbini həyəcan və qürurla doldurdu. Zəngin mədəni irsimizi bizim üçün müqəddəs sayılan bir məkandan izləyərkən “qayıdış” və “dirçəliş” prosesinin sözdən əmələ keçdiyinin bir daha şahidi olduq. Ali Baş Komandanın rəhbərliyi ilə əzəli Azərbaycan torpaqlarını işğaldan azad edən şanlı ordumuzun qələbəsi bu gün hər sahənin dirçəlişinə töhfə verəcək səylərlə genişləndirilməli, dövlətçilik tariximizin müasir səhifəsinə yeni sətirlər əlavə etməlidir. Müstəqilliyimizin bu fəxarətli və ilham verən məqamı ADA Universitetini də yeni zirvələrə yönəldir.*

*Bu fikirlər ADA Universitetinin rektoru Hafiz Paşayevin “Qazax Müəllimlər Seminariyası və “Bir müəllimin manifesti” təşəbbüsü” məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.*



Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında suverenliyini möhkəmləndirəcək yenidənqurma işlərinin ən qabaqcıl və innovativ şəkildə aparılmasına dair Prezidentin tapşırıqları ölkənin təhsil və elm icması qarşısında yeni vəzifələr qoyur. Böyük Qayıdış prosesinin hərtərəfli həyata keçirilməsi və gələcək nəsillər üçün dayanıqlı olması ölkədə mükəmməl təhsilli insan kapitalının yetişdirilməsini zərurət edir.

Təhsilin keyfiyyət göstəricisi şagird və tələbədirsə, bu keyfiyyətin təminatçısı müəllimdir. ADA Universiteti özünün müəyyənləşdirdiyi təhsil standartlarına çatması üçün yarandığı ilk gündən müvafiq tələblərə cavab verən müəllimlərin aşkarlanmasını qarşısına məqsəd qoyub. Bu, universitet üçün ardı kəsilməyən bir prosesdir. Əgər başlanğıc mərhələdə ADA-nın müəllimləri Azərbaycanın müstəqilliyinin ilk illərində elm həvəsi ilə xaricə gedən, bakalavr, magistr və doktorantura üzrə dünyanın aparıcı ölkələrində təhsilini bitirənlər idisə, son illər onların sırasına Xaricdə Təhsil Dövlət Proqramının məzunları qoşulmağa başlayıb. Və ümid edirik ki, növbəti illərdə onların sırasına Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramının yetirmələri də qatılacaqlar. Biz, ölkəmizin gələcəyinin bu günün sinif otağında qurulduğunu dərk edirik. Buna görə də tələbələrlə işlərimizdə addımlarımızı məhz Azərbaycanın gələcəyini düşünərək atırıq. Yüzlərlə gəncin qarşısına çıxan müəllim tək sahəsi üzrə biliyi deyil, həm də şərəf və ləyaqəti, ali tutduğu dəyərləri, sadiq qaldığı prinsipləri, davranış tərzi, tələbələrə yanaşması və qayğıkeşliyi, Vətənə xidmət ehtirası və maarifçiliyi, elm və tətbiqdə yenilikçi ruhuna görə nümunə olmalıdır. ADA müəlliminin vəzifəsi tək sinif otağında dərs saatları ilə bitmir. O, bu vəzifəni yaşayır. Çünki ADA müəllimi tək mütəxəssis yetişdirmir. O, ən başlıcası, insan və vətəndaş yetişdirir.

Müəllim missiyasına bu cür yanaşmanın icadına ehtiyac yox idi - qarşımızda unudulmaz tarixi bir nümunə var idi - Qazax Müəllimlər Seminariyası. XIX əsrin sonları, XX əsrin əvvəllərində Çar Rusiyasında fəaliyyət göstərən Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin, demək olar ki, varisi olan Qazax Müəllimlər Seminariyası milli irsimizin gözəl yadigarlarından biri kimi bütün azərbaycanlıların qürur mənbəyidir. Necə də olmasın- axı, Qori Seminariyasından və Qazax Seminariyasından yüzlərlə azərbaycanlı müəllim adı qazanaraq məzun olub: Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Səfərəli bəy Vəlibəyov, Mahmudbəy Mahmudbəyov, Süleyman Sani Axundov, Müslüm Maqomayev, Üzeyir Hacıbəyli, Əhməd Seyidov, Səməd Vurğun, Mehdi Hüseyn, İsmayıl Şıxlı, Osman Sarıvəlli və başqaları. Bu şəxsiyyətlər müəllimlik adını yüksək tutub, həyatlarını xalqımızın maariflənməsinə həsr ediblər. Onlar Azərbaycanda opera, teatr, kitabxana yaradıb, qəzet və jurnal nəşr edib, ana dilimizi qoruyub, ədəbiyyatı, incəsənəti, mədəniyyəti inkişaf etdiriblər. Qori Seminariyasının və Qazax Seminariyasının məzunları bu ölkəyə mütərəqqi ideyalar, yeni təfəkkür gətiriblər. Bu günün pəncərəsindən çox uzaqda görünən bu böyük şəxsiyyətlərin bəzilərini yeniyetmə yaşlarımda gördüyümü yaddaşımda canlandıraraq, özümü də söhbət apardığımız şanlı tarixin sanki bir parçası hiss etməkdən qürurlanıram.

Maarifçilərimiz Qori Seminariyasının Azərbaycan şöbəsini Vətənə gətirmək üçün çox cəhd etdilər. Məhz Qazax camaatının təşəbbüsü və maddi və mənəvi dəstəyi nəticəsində Qori Seminariyasının öncə məzunu, sonra müəllimi olan Firudin bəy Köçərli Azərbaycan şöbəsini fədakarcasına Gürcüstandan Vətənə köçürə bilmişdir. Firudin bəy Köçərli böyük şəxsiyyət, maarifçi və pedaqoq idi. Qori və Qazax seminariyalarının məzunları özlərinin milli-mənəvi dəyərlərini nəyin bahasına olursa-olsun, qoruyan və yaşatmaqda qətiyyətli olan maarifçilərə çevrildilər. Firudin bəy Köçərlinin rəhbərliyi ilə Qazaxda fəaliyyətə başlayan Müəllimlər Seminariyası da öz ölkəsinin mədəni-intellektual qüvvəsinə çevriləcək məhz belə toxumlar cücərtmək əzmində idi. Qazaxda 1918-ci il noyabrın 10-da təntənəli açılışı keçirilən Müəllimlər Seminariyasının qarşısında türk və Azərbaycan ziyalılarının səsləndirdiyi fikirlərdən biri də bu idi ki, “Vətəni ancaq iti qılıncla deyil, həm də elmlə, əqillə qorumaq lazımdır”. Bu kəlamın tarixdə dövr edib zəmanəmizin həqiqətinə çevrilməsinin biz, bu günlərdə şahidi oluruq.

Ötən həftə ADA Universitetinin heyəti Qazax icmasının ziyalıları, eləcə də Azərbaycanın müxtəlif bölgələrindən səfər edən müəllimlər, məktəb direktorları və tanınmış ziyalılarla birlikdə Qazax Müəllimlər Seminariyası binasının qarşısında təntənəli mərasimə toplaşaraq yeni layihənin başlanğıcını elan etdilər. “Bir müəllimin manifesti” təşəbbüsü ölkəmizdə təhsilin inkişafına qiymətli yatırım edəcək - Qazax Müəllimlər Seminariyası ADA Universiteti tərəfindən bərpa edilərək yenidən öz tarixi missiyasını davam edəcək. Burada bir əsr əvvəl yandırılan elm işığını daha geniş yayacaq və yeni nəsil maarifçilər yetişdirəcək. Bu təşəbbüsə maliyyə dəstəyini Amerikada 1957-ci ildə təsis edilən Azərbaycan Amerika Cəmiyyəti də göstərəcək. Cəmiyyətin Prezidenti Tomris xanım Azəri Azərbaycan bayrağını həmişə uca tutan, bu ölkənin müstəqilliyini həsrətlə gözləmiş, Azərbaycanın tanınması üçün əlindən gələni əsirgəməyən, həyatı boyu vətənə xidmət edən şəxsiyyətlərdən biridir.

ADA Universiteti ölkəmizdə yüksəkixtisaslı müəllimlər yetişdirmək səylərinə dəstək vermək məqsədilə “Bir müəllimin manifesti” təşəbbüsü çərçivəsində illərlə topladığı beynəlxalq qabaqcıl elmi-pedaqoji təcrübəni bölgələrdəki məktəblərlə və müəllimlərlə bölüşəcək. Universitetimizin müəllimləri yerlərdə məktəblərlə işləyib, buradakı aparıcı müəllimləri seçib ixtisasartırma üçün ADA-ya gətirəcək. Həmin müəllimlərin bir qismi ABŞ paytaxtı Vaşinqtonda yerləşən ADA Universitetinin Mərkəzində təhsil ala biləcəklər. Məqsəd nümunəvi təcrübələri yaymaq, peşəkar müəllimlər yetişdirmək, vətəndaşlıq və sosial məsuliyyət hissini daha dərindən aşılamaqdır.

“Bir müəllimin manifesti” təşəbbüsü yüz il əvvəl milli təhsilimizin başlanğıcından od qopararaq ölkəmizin milli maarifçilərini tarixi qələbəmizi hər sahədə uğura çevirəcək nəslin memarları kimi yenidən alovlandıracaq.

# “Ədibin Evi” Ədəbiyyata Dəstək Fondu kimi fəaliyyət göstərəcək

XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı, alim və pedaqoq Mir Cəlal Paşayevin 1929-1941-ci illərdə İçərişəhərdə yaşadığı məkanda yaradılmış “Ədibin Evi” bundan sonra fəaliyyətini Ədəbiyyata Dəstək Fondu kimi davam etdirəcək.

Xatırladaq ki, Mir Cəlalın məşhur əsərləri, o cümlədən “Bir gəncin manifesti”, “Dirilən adam”, “Füzuli sənətkarlığı”, həmçinin bir çox populyar satirik hekayələri bu evdə qələmə alınmışdır. Həmin evdə anadan olmuş yazıçının oğlu akademik Arif Paşayev 2017-ci ildə evi bərpa edərək mədəniyyət ocağı kimi istifadəyə verib.

Bu barədə AZƏRTAC-a “Ədibin Evi” Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyeva deyib.

Fondun Himayəçilik Şurasının üzvləri Bakı Dövlət Universitetinin kafedra müdiri Ədibə Paşayeva, həmin universitetin professoru Təhsin Mütəllimov və ADA Universitetinin rektoru Hafiz Paşayevdir. Şuranın qərarı ilə fondun icraçı direktoru vəzifəsinə ADA Universitetinin müəllimi Şəfəq Mehrəliyeva təyin olunub.

“Ədibin Evi” Ədəbiyyata Dəstək Fondu Azərbaycan ədəbiyyatını, tarixini, mədəniyyətini, ədəbi irsini tədqiq və təbliğ edəcək tədbirlər həyata keçirəcək. Fond gənc nəsli diqqətdə saxlayaraq “oxu” mədəniyyətini gücləndirmək, xalqa və vətənə sevginin aşılanmasında ədəbiyyatımızın rolunu vurğulamaq niyyətindədir. Bu barədə professor Təhsin Mütəllimov bildirib: “Zamanında xalq yaradıcılığı ilə klassik bədii üslubun qabaqcıl təcrübələrini ədəbiyyatımızın hekayəçilik ənənələrinə gətirən Mir Cəlalın irsinin gənc yazıçılara nümunə olacağına ümid edirik. Onun qələminin əsas müraciət ünvanı - insanlıq fəlsəfəsinin təlqini bu gün də olduqca aktualdır. Gənclərimizin bu və digər mövzulara müraciət edərək ustadımızın ənənələrini yaradıcı şəkildə davam etdirəcəklərini gözləyirik”.

## ◆ BU BARƏDƏ DÜŞÜNƏK

# BU QƏDDARLIQ HARDANDIR?!

Heç kimi müdafiə etmək niyyətində deyiləm!

Kimsəyə də qarşı qərəzim yoxdur!

Sadəcə sosial şəbəkələrdə vaxtaşırı müşahidə etdiyimiz və cəmiyyətdəki müəyyən proseslərin əksi olan bir neçə xoşagəlməz məqam barədə təəssüratımı bildirmək istəyirəm.

Hansısa şairin nəzmə çəkdiyi böyük həqiqətdir:

*Babalarımız kasıb oldu, mərd oldu!*
*Qoçaq oldu, mərd oldu!*
*Qaçaq oldu, mərd oldu!*
*Bu namərdlər hardan çıxdı?*
*Bax, bu mənə dərd oldu!..*

❖ ❖ ❖

Sosial şəbəkənin xoş niyyətlə yaradılmaması artıq möhkəm qənaətimə çevrilir!

İnterneti insanlara, dünyaya böyük fayda gətirən məkan, mənbə, həyatımıza böyük müsbət təsir gücü olan vasitə sayıram!

Amma hər medalın iki üzü olur.

Atom enerjisi insanlara böyük fayda, atom bombası isə böyük fəlakətlər gətirir.

Sosial şəbəkədə insanların bir-birini anması, ad günü, hansısa uğuru münasibətilə təbrik etməsi, isti, mehriban sözlər söyləməsi necə də xoşagələndir!

Sosial şəbəkələrdə insanların bir-birlərini təhqir etməsi, hayıf çıxması, ələ salıb məsxərəyə qoyması ürək ağrıdır!

Axı sosial şəbəkə ictimai söz meydanıdır, burada yazılanları hamı görür, oxuyur!

Görünməyən təkcə içimizdəki xıltdır, üz qızartısıdır, ürək tutmalarıdır.

Hərdən düşünürəm: niyə bəzən cəmiyyətin seçilmişlərinə, ziyalılarımıza, dövlət məmurlarına qarşı bu qədər kinliyik, amansızıq?

Bəlkə bu, sovet repressiyasının ziyalılara, tanınmışlara və seçilmişlərə qarşı cəzalandırma, asma, kəsmə, güllələmə, sürgünə göndərmə kampaniyalarının şüurumuzda kök salmış qalıqlarıdır?

Bilmirəm!

Həm də qəbul edə bilmirəm!

Vay o gündən ki, bir ziyalının əlindən bir xəta çıxa...

Vay o gündən ki, bir tanınmış yanlış addım ata...

Vay o gündən ki, bir deputat ağzından “bişməmiş söz” çıxara, yaxud “redaktə olunmamış” fikir söyləyə...

Paho!!!

Dünya qopur!

Dünya dağılır!

Dərhal sovet dövrünün terror maşınına bənzəyən “sosial şəbəkə mexanizmi” işə düşür!



Heç elə bil indi hədəfə çevrilən bu insan ömrü boyu cəmiyyətin sevilən, hörmət olunan üzvü deyilmiş...

Heç elə bil bu insan heç kəsə bir yaxşılıq edib, xeyirxah iş görməyibmiş...

Heç elə bil bu insanın doğmaları, yaxınları, dostları yoxdur...

Bir qəzəb dalğası başlayır, gəl görəsən!

Heç kimi nəzərə almırlar!

Kiminsə mənəvi zərbədən sarsılacağını, mənən məhv olacağını düşünmürlər.

Hələ bu harasıdır!

Vay o gündən ki, kimsə “günahkar”ın xoş əməllərini, xidmətlərini yada sala, ona qahmar çıxa, müdafiə etmək istəyə...

Dərhal həmin “müdafiəçinin” də üstünə tökülüşürlər...

Dərhal onu da “asılmağa layiq” görülən “günahkara” bərabər tuturlar...

“Qurban”ın müdafiəsi hüququnu belə tanımırlar.

“Qurban”a könüllü vəkillik etmək, əslində həqiqətləri xatırlatmaq istəyənləri də təqsirkarla birlikdə dar ağacına çəkməyə çalışırlar.

Niyə?

Nə olub?

Nə vaxta qədər düşmənləri öz içimizdə axtaracağıq?

Nə vaxta qədər bir-birimizə qənim kəsiləcəyik?

Nə vaxta qədər bir-birimizin qanını içəcəyik?

Bəs deyilmi?

Qarşımızda konkret düşmənimizin olmasını, son 30 ildə iyirmi beş mindən çox vətən övladını qətlə yetirərək Qarabağımızı viranəyə çevirməsini görmürükmü?

Bu gün də düşmənimizi haqsız müdafiə etmək naminə ölkədən kənarda birləşərək bizə qarşı ağız-ağıza verib hürənlərin səsini eşitmirikmi?

Özünü üzdə bizə dost göstərərək arxada kürəyimizə bıçaq saplayanlarımız, düşmənlərə dəstək verənlərimiz azdırmı?

Elə bil bir qisim adam marığa yatıb.

Elə bil fürsət gözləyirlər:

Kimisə qaralamağa...

Kimisə yaralamağa...

Kiminsə axırına çıxmağa...

İnfarkt etməyə...

Həbsxanaya atmağa...

O dünyaya göndərməyə...

Bu qəddarlıq hardandır?

Bu zalımlıq hardandır?

Bu qana susamaq hardandır?

Dərhal “məhkəmələr” qurulur!

Dərhal “araşdırmalar” aparılır, “ehtimallar” irəli sürülür.

Dərhal kiminsə səhvi, əlindən çıxan xətası “ən dəhşətli əməl” hesab olunaraq ən ağır cəzaya layiq görülür:

Asılsın!

Kəsilsin!

Həbsxanaya atılsın!

Cəmiyyətdən qovulsun!

Daha nələr, nələr olunsun!

Niyə hamı hamını ittiham etmək istəyir?!

Niyə hamı özündən başqa qeyrilərini “natəmiz”, “cinayətkar” sayır?!

Bu nə mövqedir?!

Bu nə yanaşmadır?!

Bu nə qiymətləndirmədir?!

Niyə 44 günlük Zəfər müharibəsindəki möhtəşəm birliyimizi qoruyub saxlamayaq?!

Niyə birini kəsmək istəyəndə onun da insan olduğunu, səhv edə biləcəyini, keçmişdəki xoş əməllərini yada salmırıq, ədalətli olmağa çalışmırıq?

Niyə bizi parçalamaq, hələ yarası sağalmayan vətənimizdə qarşıdurma, xaos, anarxiya, başıpozuqluq yaratmaq üçün dəridən-qabıqdan çıxanların, bu yolda milyonlar xərcləyən anti-Azərbaycan şəbəkənin varlığını və hələ mənfur niyyətlərindən çəkilmədiklərini unuduruq?

Niyə? Niyə? Niyə?

Allahımız mərhəmətlidir, bağışlayandır!

Bəs biz niyə ürəyibərk, asıb-kəsən olmalıyıq?

Niyə insanları mənən məhv etməkdən belə zövq alırıq, az qala qürur duyuruq?

Bəlkə bir qədər düşünək?

Bəlkə bir qədər ədalətli olaq?

Bəlkə bir qədər rəhmli olaq?

Heç olmasa özümüzə qarşı, özümüzünkülərə münasibətdə?

Axı bir o qədər də çox deyilik!

Amma görün düşmənlərimiz necə də çoxdurlar?

Birləşməsək, heç zaman onlara qalib gələ bilmərik!

Bir olmasaq, qarşıya qoyduğumuz vəzifələri uğurla həyata keçirə bilmərik!

Həm də axı bir olanda, birlikdə olanda əsl gücə çevrilirik!

Necə ki Ali Baş Komandanın rəhbərliyi ilə dəmir yumruğa dönərək düşmənin başını əzdik!

Bəlkə bu barədə bir qədər düşünək...

**Bəxtiyar SADIQOV**

## 21 May Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günüdür

# Birliyimizin zəfəri

Hər il qeyd olunan Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü BMT Baş Məclisi tərəfindən 2002-ci ilin dekabrında təsis edilib. Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü ilk dəfə 2003-cü il mayın 21-də keçirilib.

Qeyd edək ki, UNESKO-nun “Mədəniyyətlərin müxtəlifliyinə dair” bəyannaməsi 2001-ci ildə qəbul olunub. Bu bəyannamənin həyata keçirilməsi üçün iyirmi əsas istiqamətdən ibarət fəaliyyət planı müəyyənləşdirilib. Bəyannamədə müxtəliflik, dialoq və inkişaf arasında əlaqənin yeni anlayışı irəli sürülüb. 2002-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən Dünya Mədəniyyətinin İnkişafı Gününü əvəzləyən Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü elan olunub. 2003-cü ildə isə BMT Baş Məclisi qeyri-maddi mədəni irsin: bayramların, ənənələrin, adətlərin və dillərin qorunması haqqında Konvensiya qəbul edib.

Bəyannaməni təsdiqləməklə UNESKO-ya üzv olan dövlətlər mədəni müxtəlifliklə əlaqədar dəyərlərin tanınmasını, qorunmasını və yerli, milli, beynəlxalq səviyyədə fəal təbliğ olunmasını öhdələrinə götürüblər.

Bu əlamətdar günün keçirilməsində əsas məqsəd insanlara mədəni müxtəlifliyin əhəmiyyətini və dəyərini dərindən dərk etməyə imkan yaratmaq, dünya xalqları arasında əməkdaşlığı inkişaf etdirməyi öyrənməkdir.

Mədəniyyətlərarası dialoqun vacibliyi barədə məlumatlılığın qlobal səviyyəsini yüksəltmək üçün hər il Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Gününə həsr edilən tədbirlər düzənlənir. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi UNESKO-nun, Avropa Şurası və ATƏT-in mədəni müxtəlifliyə dair proqramlarında fəal iştirak edir.

Ölkəmizdə tarixən bütün xalqlara, mili azlıqlara və etnik qruplara eyni münasibət göstərilib. Ötən əsrin sonuncu onilliyində müstəqillik əldə edildikdən sonra Azərbaycanda yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti ölkə mədəniyyətinin tərkib hissəsi kimi qorunur və inkişaf edir. Sovet İttifaqının süqutundan sonra Azərbaycanda bır sıra mədəniyyət mərkəzlərinin yaranması buna nümunədir. Milli azlıqlar tarixi, mədəni adət-ənənələrini qoruyub saxlamaq üçün mədəniyyət mərkəzlərini yaradıblar. Hazırda respublikamızda milli-mədəniyyət mərkəzləri fəaliyyət göstərir.

Azərbaycanda yaşayan onlarca milli azlığın nümayəndəsi öz dillərindən istifadə edir, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır, özlərinin milli-mədəni birliklərini, assosiasiyalarını və ittifaqlarını yaradırlar.

Azərbaycan Respublikası vətəndaşlarının keçmişinə aid olan tikililər “tarix və mədəniyyət abidələri” kimi siyahıya alınaraq dövlət tərəfindən qorunur və bərpa olunur. Şəki rayonunun Kiş və Qəbələ rayonunun Nic kəndindəki kilsələri, Qax rayonu ərazisində xristian kilsəsi, Masallı rayonunun Ərkivan kəndində XIX əsr məscidi buna misal göstərilə bilər.

Qax rayonunun Əlibəyli kənd mədəniyyət evində 1981-ci ildə yaradılan, 1985-ci ildə “xalq teatrı” adını almış gürcü dram dərnəyinə dövlət statusu verilib. Paytaxt Bakıda`Səməd Vurğun adına Rus Dram Teatrı ilə yanaşı, Azərbaycan Dövlət Musiqili Komediya, Azərbaycan Dövlət Gənc Tamaşaçılar və Azərbaycan Dövlət Kukla teatrlarında rus bölmələri fəaliyyət göstərir.

Milli azlıqların yığcam yaşadıqları Lənkəran şəhəri, Astara, Balakən, Dəvəçi, Gədəbəy, Xaçmaz, İsmayıllı, Qax, Qəbələ, Qusar, Lerik, Zaqatala, Masallı rayonlarında fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərində minlərlə yeniyetmə müxtəlif ixtisaslar üzrə təhsil alır.

Azsaylı xalqların folklorunu, mədəniyyətini geniş təbliğ edən bədii özfəaliyyət kollektivləri yaradılıb. Saatlının “Adıgün” axıska türkləri, Cəlilabadın “Ruçeyok” rus, Qaxın “Şividkatsa” gürcü, Zaqatalanın “Ceyranım” saxur, Qubanın tat, yəhudi, Qusarın “Trillo”, “Şahnabat”, “Mel”, “Qayıbulaq”, “Şahdağ”, “Dustaval” və “Melodiya” ləzgi, Laçının kürd, Balakənin “Xoylo” avar, Lənkəranın “Şənlik”, “Bacılar” folklor mahnı və rəqs, Masallı rayonu “Halay”, Lerik rayonunun “Laqutto”, Astaranın “Sevinc” talış, İsmayıllı rayonu İvanovka kənd mədəniyyət evinin malakan, Bakı şəhərindəki “Gözəlim” tatar bədii özfəaliyyət kollektivləri bu qəbildəndir. Onlara dövlət tərəfindən diqqət və qayğı göstərilir. Mədəniyyət müəssisələrində fəaliyyət göstərən azsaylı xalqlar Azərbaycanın ayrı-ayrı bölgələri ilə yanaşı, xarici ölkələrdə də qastrol səfərlərində olurlar.

Mədəni müxtəlifliyin dəstəklənməsi və qorunması Azərbaycanın dövlət siyasətində öz əksini tapıb. UNESKO-nun 20 oktyabr 2005-ci il tarixli “Mədəni özünümüdafiə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya”ya uyğun olaraq, Azərbaycanda yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti, incəsənəti, adət-ənənələri və dilinin qorunub saxlanması üçün məqsədyönlü iş aparılır. Prezident İlham Əliyevin 2009-cu il 26 noyabrda imzaladığı qanunla ölkəmiz bu Konvensiyaya qoşulub.

Azərbaycan dövləti çalışır ki, ölkəmizdə yaşayan milli azlıqlar öz ənənələrini yaşatsınlar, Azərbaycan mədəniyyətinin tərkib hissəsi olan bu xalqların mədəniyyətləri qorunaraq nəsildən-nəslə ötürülsün. Etnik azlıq və qrupların mədəni irsinin qorunub saxlanması və inkişaf etdirilməsi, eləcə də xalqlar arasında qarşılıqlı anlaşma və tarixi dostluq münasibətlərinin möhkəmləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər, dövlətin qayğısı, azsaylı xalqların mədəniyyətinin inkişafına dəstək onlara stimul verir.

Azərbaycanı özlərinə vətən bilən, qarşılıqlı anlaşma və mehribanlıq şəraitində yaşayan xalqların, milli və dini azlıqların nümayəndələri ölkəmizin daha da qüdrətlənməsində, dünyada tanınmasında mühüm işlər görürlər. Bu sarsılmaz birlik sayəsində Azərbaycan Ordusu 44 gün ərzində işğalçı Ermənistan silahlı qüvvələrini tar-mar etdi.

Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən “Xarıbülbül” musiqi festivalının açılışında çıxış edən Prezident İlham Əliyev yenidən diqqəti Azərbaycanda yaşayan xalqların birliyinin sarsılmazlığına yönəltdi. Qədim mədəniyyət beşiyi olan Şuşada 29 ildən sonra düzənlənən möhtəşəm tədbirdə dövlət başçısı bildirdi ki, uzun fasilədən sonra bu il birinci dəfə keçirilən “Xarıbülbül” musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Prezident İlham Əliyev vurğuladı: “Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı. Bu, bizim hamımızın qələbəsidir”.

Bu ildən başlayaraq “Xarıbülbül” festivalı Şuşada hər il keçiriləcək. Uzun fasilədən sonra düzənlənən festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış etdilər. Dövlət başçısı vurğuladı ki, builki festival Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə edir: “Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan - Şuşadan, qədim torpağımızdan mesaj veririk. Ölkələr belə inkişaf etməlidir, ancaq çoxkonfessiyalı, çoxmillətli ölkələrdə, cəmiyyətlərdə inkişaf olur, birlik olur, milli həmrəylik olur, sülh olur. Biz dünyanın müxtəlif yerlərində baş verən hadisələri izləyirik, görürük və deyə bilərəm ki, bir neçə il bundan əvvəl bu gün mövcud olan vəziyyəti görürdük. Ona görə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə, o cümlədən ölkəmizdə keçirilmiş çoxsaylı tədbirlərdə multikulturalizmi təbliğ edirdik, müxtəlif xalqların birgəyaşayışını təbliğ edirdik və deyirdik ki, bu, mümkündür. Azərbaycanın timsalında deyirdik ki, bu, mümkündür və göstərirdik, öz təcrübəmizi bölüşürdük, öz fikirlərimizi bölüşürdük və hesab edirəm ki, bizim bu səylərimiz nəticə verdi. Çünki bu gün dünyada bu məsələ ilə bağlı daha dəqiq təsəvvür vardır”.

Otuz ilə yaxın davam edən işğal müddətində mənfur düşmən tərəfindən tarixi, mədəni, dini abidələrimiz dağıdıldı. Yaşayış evləri və ictimai binalar yerlə-yeksan edildi. Azərbaycan xalqı o illər ərzində hər zaman ərazilərimizin düşmən işğalında qalmayacağına inandı. Artıq arzularımız həyata keçib. Erməni qəsbkarlarının xarabalığa çevirdikləri yaşayış məskənlərimiz Azərbaycanda yaşayan bütün xalqların birliyi və əməyi ilə abad olacaq.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

# Özbəkistanın Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktorunun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda rəsmi səfərdədir





Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin dəvəti ilə Özbəkistan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktoru Akmal Burxanovun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri başlayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Fəxri xiyabana gələn qonaqlar xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarları üzərinə tər qərənfillər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Tədbir proqramının davamı olaraq, Azərbaycan Respublikasının Baş Prokurorluğunda nümayəndə heyəti ilə ikitərəfli görüş keçirilib.

Azərbaycanın Baş prokuroru Kamran Əliyev dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə demokratik və hüquqi dövlət quruculuğu sahəsində görülən işlər barədə ətraflı məlumat verərək onlara milli qanunvericiliyin beynəlxalq təcrübə nəzərə alınmaqla daha da təkmilləşdirilməsi istiqamətində atılmış addımlardan, səmərəli dövlət idarəçiliyinə hesablanmış yeni institusional mexanizmlərdən, vətəndaşlara xidmət göstərməklə süründürməçilik hallarının aradan qaldırılmasında əhəmiyyətli rol oynayan "ASAN xidmət" və DOST mərkəzlərinin fəaliyyətindən bəhs edib. Habelə çıxışında ölkə təcrübəsində şəffaflıq və keyfiyyətlilik meyarlarının rəhbər tutulduğu kompleks tədbirlərə dair konkret nümunələrə toxunan Kamran Əliyev prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun olaraq optimallaşdırılması, texnoloji innovasiyalardan faydalanmaqla bu sahədə mövcud prosedurların elektronlaşdırılması ilə bağlı görülən işlərdən, həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış nüfuzlu beynəlxalq təşkilatlar olan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) ilə qarşılıqlı əməkdaşlıqdan danışıb.

Görüşdə xüsusi vurğulanıb ki, mövcud siyasi iradəyə əsasən ölkəmizdə rüşvətxorluq və korrupsiyaya qarşı mübarizə məsələləri başlıca prioritetlərdən biridir, Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası kimi mühüm təsisatlar tərəfindən qəbul edilmiş beynəlxalq sənədlərin ratifikasiya olunması təmin edilməklə, milli dövlətçilik ənənələrinə və müvafiq dünya standartlarının tələblərinə cavab verən qanunvericilik bazası formalaşdırılıb, eləcə də bu sahədə qəbul edilmiş normativ-hüquqi akt və strateji fəaliyyət planlarının səmərəli tətbiqinə müvəffəq olunub.

Bundan başqa, ölkəmizin ötən il aparmış olduğu 44 günlük haqq savaşı barədə söz açan Baş prokuror Kamran Əliyev xalqın birmənalı dəstəyinə arxalanan Ali Baş Komandan İlham Əliyevin göstərdiyi qətiyyət və müzəffər Ordumuzun şücaəti nəticəsində ərazi bütövlüyümüzün bərpa edildiyini diqqətə çatdırıb. Çıxışda müharibə günlərində düşmən tərəfinin beynəlxalq humanitar hüququn tələblərini kobud surətdə pozması, dinc əhaliyə və mülki obyektlərə ziyan vurmaqla çoxsaylı müharibə cinayətləri törətməsi təəssüflə vurğulanıb, həmin cinayətlərin istintaqı zamanı müəyyən edilmiş bir sıra faktlardan istinadlar gətirilib.

Səmimi qəbula görə minnətdarlığını ifadə edən Özbəkistan Respublikası Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktoru Akmal Burxanov Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində məhkəmə-hüquq sistemində və prokurorluq orqanlarında həyata keçirilən və müsbət nəticələr verən islahatları yüksək dəyərləndirib, ölkələrimiz arasında olan sıx münasibətlərin iki qurum arasında da davam etdiriləcəyinə, hazırkı təcrübə mübadiləsinin tərəflərə yeni töhfələr verəcəyinə ümidvar olduğunu bildirib.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılıb, tərəfləri maraqlandıran məsələlər müzakirə olunub. Qardaş türkdilli ölkələr olan dövlətlərimiz və xalqlarımız arasında zəngin tarixə malik və ildən-ilə daha da dərinləşən münasibətlərə paralel olaraq, iki dövlətin müvafiq orqanları arasında qarşılıqlı əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Daha sonra qonaqlar Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olublar. Muzeydə Azərbaycan Prokurorluğunun zəngin tarixi, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunmuş guşə və eksponatlar onlarda xüsusi təəssürat oyadıb.

Hazırda Özbəkistan Respublikası Korrupsiyaya qarşı Mübarizə Agentliyinin nümayəndə heyətinin səfəri davam edir. Səfər çərçivəsində nümayəndə heyətinin digər dövlət orqanlarının fəaliyyəti ilə tanışlığı da nəzərdə tutulub.

# *Akmal BURXANOV:* "Özbəkistanda korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycanın təcrübəsi öyrənilir"

Mayın 20-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Özbəkistan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktoru Akmal Burxanov ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Azərbaycanla Özbəkistan arasında diplomatik əlaqələrin tarixindən söz açan Ziyafət Əsgərov müstəqillik dövründə münasibətlərin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb. İkitərəfli çoxşaxəli əməkdaşlıq əlaqələrinin genişlənməsində dövlət başçılarının qarşılıqlı rəsmi səfərlərinin rolundan danışıb. Parlamentlərimiz arasında əlaqələrin genişlənməsi istiqamətində hər iki tərəfdən dostluq qruplarının səmərəli fəaliyyət göstərdiyini qeyd edib. Dost və qardaş Özbəkistanın hər zaman Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini, Vətən müharibəsi günlərində də həmin mövqeyinə sadiq qaldığını deyib və bütün bunların ölkəmizdə çox yüksək qiymətləndirildiyini bildirib.

Görüşdə Özbəkistan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktoru Akmal Burxanov son vaxtlar münasibətlərin inkişafında müsbət dinamika müşahidə olunduğunu, ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini qeyd edib. O, Özbəkistanda beş istiqamətdə aparılan genişmiqyaslı islahatlardan bəhs edib, antikorrupsiya fəaliyyətinin həmin istiqamətlərdən biri olduğunu deyib. Direktor başçılıq etdiyi qurumun yeni yarandığını və Azərbaycanın antikorrupsiya sahəsindəki təcrübəsini öyrənmək istədiklərini bildirib.

Qonaq Özbəkistanın Korrupsiyaya qarşı Mübarizə Agentliyi barədə ətraflı məlumat verib. Parlamentlə sıx əməkdaşlıq şəraitində işlədiklərini deyib. O, korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycanın təcrübəsinin öyrənilməsinə Özbəkistanda dövlət səviyyəsində yüksək əhəmiyyət verildiyini diqqətə çatdırıb.

Söhbət zamanı Milli Məclisin komitə sədri Ziyafət Əsgərov ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərdən söz açıb. Prezidentin müvafiq fərmanları, Milli Məclisin qəbul etdiyi qanunlar, qoşulduğumuz beynəlxalq konvensiyalar, korrupsiyaya qarşı mübarizə aparan qurumlar, hüquq mühafizə sistemində gedən islahatlar, xüsusilə kadr məsələləri, şəffaf fəaliyyəti ilə əhalinin rəğbətini qazanmış olan "ASAN" brendi və sair barədə ətraflı məlumat verib. Başçılıq etdiyi komitənin əlaqədar qurumlarla sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərdiyini bildirib. Qeyd edib ki, qanunverici orqan olaraq Milli Məclis korrupsiyaya qarşı səmərəli mübarizə aparılması üçün lazımi hüquqi bazanın yaradılması istiqamətində ciddi addımlar atıb. Qəbul edilən qanunlar cəmiyyətdə korrupsiya və rüşvətxorluq hallarının azalmasında əhəmiyyətli rol oynayıb.

Akmal Burxanov Azərbaycanın müvafiq qurumları ilə əməkdaşlıq əlaqələrinin qurulmasını, həmçinin Milli Məclisin təcrübəsinin öyrənilməsini vacib hesab etdiklərini bildirib. Hazırda korrupsiyaya qarşı mübarizə sahəsində çoxsaylı normativ hüquqi aktların layihəsini hazırladıqlarını və bu işdə parlamentin dəstəyinin zəruriliyini qeyd edib. Qonaq Azərbaycanda sahə mütəxəssisləri və deputatlarla keçirdikləri görüşlərin əhəmiyyətini yüksək dəyərləndirib.

Görüşdə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvləri Əminə Ağazadə, Arzu Nağıyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Ali Məhkəmənin sədr müavini Özbəkistanın Korrupsiyaya qarşı Mübarizə Agentliyinin nümayəndə heyəti ilə görüşüb

Mayın 20-də Ali Məhkəmədə ölkəmizdə səfərdə olan Özbəkistan Respublikası Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktoru Akmal Burxanovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Ali Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonaqları Azərbaycanda salamlamaqdan məmnun olduğunu bildirən Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov ölkəmizdə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanan mütərəqqi qanunvericilik aktları, ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı həyata keçirilən islahatlar, hakim vəzifəsinə seçim prosedurlarının müasir standartlara uyğunlaşdırılması, məhkəmə sistemində korrupsiya ilə mübarizə sahəsində görülən işlər barədə ətraflı məlumat verib.

Görüşdə Ali Məhkəmənin Cinayət kollegiyasının sədri Hafiz Nəsibov korrupsiya faktları ilə bağlı məhkəmələrdə baxılan işlər barədə danışaraq ölkəmizdə korrupsiya ilə mübarizənin ön plana çəkildiyini, bu sahədə kompleks tədbirlərin görüldüyünü vurğulayıb.

Özbəkistan Respublikası Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktoru Akmal Burxanov Azərbaycanın müasir tələblərə cavab verən qanunvericilik bazasını, respublikamızda aparılan məhkəmə-hüquq islahatlarını və eyni zamanda, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirləri yüksək dəyərləndirib, bu sahədə Azərbaycan təcrübəsinin öyrənilməsində maraqlı olduqlarını diqqətə çatdırıb.

Nümayəndə heyətinin başçısı Özbəkistanda həyata keçirilən islahatların, o cümlədən Korrupsiyaya qarşı Mübarizə Agentliyinin bu sahədəki fəaliyyətinin uğurla davam etdirildiyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Özbəkistanlı qonaqlar Ali Məhkəmənin inzibati binası ilə tanış olub, Məhkəmə tarixi muzeyinə baxıblar.

# Azərbaycanın və Belarusun müdafiə nazirləri hərbi hissələri ziyarət ediblər





Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və ölkəmizdə rəsmi səfərdə olan Belarus Respublikasının müdafiə naziri general-leytenant Viktor Xrenin bir neçə hərbi hissəni ziyarət ediblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə qonaqlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılmış abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Müdafiə nazirləri hərbi hissənin qərargahında olublar. General-leytenant V.Xrenin burada hərbi hissənin xatirə kitabına ürək sözlərini yazıb.

Sonra nazirlər ərazidəki hərbi infrastruktur, inzibati, xidməti binalar və qurğular, eləcə də əsgər yataqxanası, yeməkxana və hərbi texnika ilə tanış olublar. Onlara şəxsi heyətin döyüş və xidməti vəzifələrini yerinə yetirməsi üçün yaradılan şərait barədə ətraflı məlumat verilib.

Sonra "Polonez" əməliyyat-taktiki raket komplekslərinin yerləşdiyi hərbi hissə ziyarət olunub.

Müdafiə nazirlərinə qoşun xidməti, hərbi hissənin döyüş hazırlığı və qarşıya qoyulan tapşırıqların icrası barədə ətraflı məruzə olunub. Hərbi hissə və şəxsi heyətin yüksək sosial məişət şəraiti ilə bağlı məlumat verildikdən sonra nazirlər burada yaradılan hərbi infrastrukturla tanış olublar. Qərargah binası, əsgər yataqxanası, yeməkxanaya baxış keçirilib.

Sonda müdafiə nazirləri "Polonez" əməliyyat-taktiki raket komplekslərinin saxlandığı park, döyüş raketlərinin saxlandığı anbar və texniki xidmət mərkəzində olublar.

# *Müdafiə naziri:* "Azərbaycanın qazandığı qələbə Cənubi Qafqaz regionunda sabitliyin təmin olunmasına böyük töhfə verəcək"

Mayın 20-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Vaşinqtonda fəaliyyət göstərən Xəzər Siyasi Mərkəzinin icraçı direktoru Əfqan Niftinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə naziri qonaqlara regiondakı hərbi-siyasi vəziyyət, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar, habelə ölkəmiz tərəfindən beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasına verilən töhfə və digər məsələlər barədə ətraflı məlumat verib.

General-polkovnik Z.Həsənov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin komandanlığı ilə əks-həmlə əməliyyatı ilə başlayan Vətən müharibəsi Azərbaycan Ordusunun şanlı qələbəsi ilə başa çatıb və torpaqlarımız işğaldan azad edilib. Qazanılan qələbənin Cənubi Qafqaz regionunda sabitliyin təmin olunmasına töhfə verəcəyini xüsusi vurğulayan müdafiə naziri azad edilmiş ərazilərdə Azərbaycan Ordusu tərəfindən hazırda həyata keçirilən tədbirlər haqqında da qonaqları məlumatlandırıb.

Nümayəndə heyətinin üzvləri Vətən müharibəsində əldə olunan qələbə münasibətilə Azərbaycan xalqını təbrik edib, şəhidlərin yaxınlarına başsağlığı verib və yaralılara şəfa diləyiblər. Müharibənin ilk günündən döyüşlər haqqında məlumatları diqqətlə izlədiklərini, müxtəlif qoşun növlərinin cəlb olunması ilə həyata keçirilən əməliyyatların təhlilini apardıqlarını qeyd edən qonaqlar ABŞ, eləcə də digər ölkələrin hərbi ekspertləri tərəfindən Azərbaycan Ordusunun bu müharibədə qazandığı təcrübənin, tətbiq olunan taktika və döyüş üslubunun dərindən öyrənildiyini xüsusi vurğulayıblar.

Mərkəzin icraçı direktoru Əfqan Nifti qurumun fəaliyyəti barədə ətraflı məlumat verərək ölkəmizə səfərin vacibliyi və belə görüşlərin qarşılıqlı təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulayaraq səmimi görüşə görə heyət üzvləri adından müdafiə nazirinə minnətdarlığını bildirib.

Söhbət zamanı general-polkovnik Z.Həsənov qonaqları maraqlandıran çoxsaylı sualları cavablandırıb.

Görüşdə Xəzər Siyasi Mərkəzinin idarə heyətinin üzvləri Riçard Hoqland və Robert Sekuta, eləcə də ABŞ Ordusunun ehtiyatda olan general-mayoru Maykl Repass da iştirak ediblər.

# Həbs edilən erməni terrorçularının azərbaycanlılara qarşı cinayətkar əməlləri ilə bağlı cinayət işinin istintaqı yekunlaşıb

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın acı məğlubiyyəti ilə nəticələnmiş Qarabağ savaşı beynəlxalq humanitar normalarını kobud şəkildə pozaraq insanlıq, müharibə cinayətləri törətmiş və uzun illər ərzində havadarlarının dəstəyi ilə istintaqdan qaçıb gizlənmiş şəxslərin tutularaq cinayət məsuliyyətinə cəlb edilməsinə imkan yaradıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məlum olduğu kimi, Ermənistan Respublikasının rəhbərliyinin qanunsuz göstərişləri ilə dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş çoxsaylı cinayətlər nəticəsində yüzlərlə Azərbaycan vətəndaşı, o cümlədən uşaq, qadın və qocalar erməni əsir və girovluğunda dözülməz işgəncələrin qurbanı olub.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində qanunsuz fəaliyyət göstərən erməni separatçı rejiminin silahlı birləşmələri və Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının işğal altındakı ərazilərində azərbaycanlılara qarşı törədilmiş sülh və insanlıq əleyhinə, müharibə cinayətləri ilə bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə Hərbi Prokurorluqda cinayət işinin istintaqı zamanı əsirlərin və beynəlxalq humanitar hüquqla müdafiə olunan digər şəxslərin girov saxlanması, onlara işgəncə verilməsi, qəddar və qeyri-insani rəftar edilməsi faktları müəyyən olunmuşdur.

İstintaqla müəyyən olunub ki, Ermənistan Respublikasının vətəndaşı 1969-cu il təvəllüdlü Mkrtiçyan Lüdvik Mkrtiçoviç Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində yaşayan, habelə Ermənistan Respublikasından gəlmiş millətçi ermənilərdən ibarət yaradılmış silahlı qrupların fəaliyyətində iştirak edib, onlarla qabaqcadan əlbir olan bir qrup şəxs halında cinayət əlaqəsinə girərək 1991-ci ilin iyulunda Xocalı şəhəri yaxınlığındakı "Ballıca" adlandırılan meşədə girov götürülərək azadlığı qanunsuz olaraq məhdudlaşdırılmış Azərbaycan vətəndaşına, habelə 1999-cu il sentyabrın 13-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndi ərazisində girov götürülərək Ermənistan Respublikasının İrəvan şəhərinə gətirilmiş və həmin şəhərdə yerləşən hərbi hissələrin birində qanunsuz saxlanılan mülki şəxsə Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən sorğu-sual edilən zaman tərcüməçi kimi iştirak edərkən işgəncə verib.

İstintaqla Lüdvik Mkrtiçyan tərəfindən daha 11 nəfər əsir götürülmüş Azərbaycan vətəndaşının müxtəlif vaxtlarda Xocavənd və Ağdərə rayonları ərazisində, Şuşa həbsxanasında və Ermənistanın İrəvan şəhərində qanunsuz saxlanıldığı yerlərdə döyülərək müxtəlif xarakterli işgəncələrə məruz qaldığı və Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin hərbi qulluqçusunun avtomat silahdan atəş açılaraq öldürüldüyü müəyyənləşdirilib.

Lüdvik Mkrtiçyan 2020-ci il oktyabrın 20-də Füzuli rayonunun Məlikcanlı kəndi ərazisində Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları tərəfindən saxlanılaraq ələ keçirilib.

Aparılmış istintaq tədbirləri nəticəsində Lüdvik Mkrtiçyan ilə birlikdə azərbaycanlılara qarşı amansız rəftar edərək onlara işgəncələr vermiş Ermənistan Respublikasının vətəndaşı 1967-ci il təvəllüdlü Xosrovyan Alyoşa Aramaisoviçin də cinayətkar əməlləri ifşa olunub.

İstintaqla Alyoşa Xosrovyanın 5 azərbaycanlıya əsirlikdə olduqları müddətdə işgəncə verməsi, onlarla qəddar və qeyri-insani rəftar etməsi müəyyənləşdirilib.

Belə ki, Alyoşa Xosrovyan 1994-cü ilin aprelində Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin əsir düşmüş sabiq əsgərini Xocavənd rayonunun Mısmına (Ağbulaq) kəndindəki yaşayış evlərinin birində qanunsuz olaraq saxlanılan zaman, qondarma "Dağlıq Qarabağ respublikası"nın "müdafiə naziri" Babayan Samvel Andranikoviç üçün həmin kənddə evin tikintisində ağır işlərin görülməsinə məcbur edib ona müxtəlif dərəcəli xəsarətlər yetirib.

Bundan başqa, Alyoşa Xosrovyan Azərbaycan Silahlı Qüvvələrinin 1993-1994-cü illərdə əsir düşərək Şuşa şəhər həbsxanasında qanunsuz saxlanılan əsgərlərinə qarşı da xüsusi qəddarlıq nümayiş etdirərək onlara mütəmadi qaydada döymə, ac-susuz saxlama, fiziki və psixi iztirablar yetirməklə işgəncə verib.

Alyoşa Xosrovyan Azərbaycan Respublikasının ərazilərində kəşfiyyat xarakterli hərəkətlər apararkən 2020-ci il oktyabrın 3-də Azərbaycan silahlı bölmələrinin hərbi qulluqçuları tərəfindən ələ keçirilib.

Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyanın Cinayət Məcəlləsinin 113-cü (işgəncə), 115.2-ci (müharibə qanunlarını və adətlərini pozma), 279.1-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə nəzərdə tutulan cinayətləri törətmələrinə əsaslı şübhələr müəyyənləşdirildiyindən onlara həmin maddələr üzrə ittiham elan olunmaqla barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Mayın 20-də iş üzrə ittiham aktı təsdiqlənərək baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib.

Hazırda cinayət işi üzrə digər şəxslərin cinayətkar əməllərinin ifşa edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində kompleks tədbirlər davam etdirilir.

Azərbaycan Respublikası Baş Prokurorluğu bir daha bəyan edir ki, törədildiyi vaxtdan asılı olmayaraq sülh və insanlıq əleyhinə, müharibə cinayətləri törətmiş şəxslərin Ali Baş Komandan İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, müəyyənləşdirilərək cinayət məsuliyyətinə cəlb edilmələri təmin olunacaq.

## Müəllifi İlham Əliyevdir

Əvvəli 1-ci səh.







# Qələbəni bizə yaşadanları “YAŞAT”!

## Azərbaycan Prezidentinin yaratdığı Fond şəhidlərimizin əmanətlərini qoruyur, qazilərimizə böyük dəstək göstərir

Ancaq həm Vətən müharibəsi, həm də postmüharibə dövründə cəmiyyətdə çox böyük çağırışlar var idi. İctimaiyyət nümayəndələri şəhid ailələrinə, qazilərimizə öz yardımlarını etmək üçün müxtəlif təkliflər səsləndirirdilər. Hər zaman xalqın istək və arzularının gerçəkləşməsi istiqamətində müdrik qərarlar qəbul edən Prezident İlham Əliyev mövcud reallığı nəzərə alaraq həmin kateqoriyadan olan vətəndaşlarımıza könüllü yardım etmək istəyənlərin mərkəzləşdirilmiş platforması olan “YAŞAT” Fondunu yaratdı.

Dövlət başçısının 2020-ci il 8 dekabr tarixli fərmanına uyğun olaraq yaradılan Fondun əsas məqsədi Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, qazilərimizin problemlərini ictimaiyyətlə dövlətin birgə həmrəyliyi ilə aradan qaldırmaqdır. Hansı ki bu Fonda dövlət yox, vətəndaşlar, təşkilatlar ianələr edirlər və bu vəsaitlə şəhid ailələrinə, qazilərimizə, onların ailə üzvlərinə tam şəffaf şəkildə müxtəlif istiqamətli yardımlar edilir. Yəni Fondun vəsaiti Azərbaycan vətəndaşlarının, xarici ölkələrdə yaşayan soydaşlarımızın, digər fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar (ianələr), habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırılır. Fonda vəsait onlayn qaydada elektron ödəmə portalları, “8110” SMS nömrəsi, bank köçürməsi və ödəmə terminalları vasitəsilə toplanılır: “Cənab Prezidentin fərmanına əsasən yaradılan şəhid ailələrinin, qazilərimizin təminatına dəstək Fondu - “YAŞAT” ərazi bütövlüyümüzün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçuların və şəhid olmuş şəxslərin ailə üzvlərinin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi üçün şəffaf, effektiv və əlçatan platformadır. Bizlər də üzərimizə düşən vəzifəni layiqincə doğrultmağa çalışırıq. Ötən dörd aydan artıq müddətdə görülən işlər də göz önündədir”.

### Fondun gəlirlərinə, xərclənməsinə Himayəçilik Şurası nəzarət edir

Ülvi Mehdiyev Fondun strukturu və fəaliyyət istiqaməti barədə məlumat verərək qeyd etdi ki, Prezidentin müvafiq sərəncamı ilə ölkənin tanınmış ziyalıları, ictimai-siyasi xadimlərindən ibarət Fondun 11 nəfərdən ibarət Himayəçilik Şurası formalaşdırılıb.

Şuranın əsas prioritet vəzifəsi Fondun fəaliyyətinə nəzarət etməkdir. Yəni şura ilk növbədə Fondun gəlirlərinə, vəsaitinin xərclənməsinə nəzarət edir, müzakirələr aparır, habelə daxil olan vəsaitin məbləği nəzərə alınmaqla, onun xərc istiqamətlərini müəyyən edir. Həmçinin Fondun vəsaitinin idarə edilməsi ilə bağlı kənar auditor yoxlamalarının keçirilməsinə dair tədbirlər görür və vəsaitin idarə edilməsi ilə bağlı digər məsələləri tənzimləyir.

Agentlik isə müvafiq şəxslərin müraciətlərinin qəbulunu və onlara baxılması, fiziki və hüquqi şəxslərin Fonda könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımların (ianələrin) bank və ya poçt vasitəsi ilə, eləcə də elektron qaydada qəbulunu təşkil edir. Eyni zamanda Fondun vəsaitlərinin idarə edilməsini və əlavə dəstək tədbirlərinin həyata keçirilməsini təmin edən informasiya sistemi formalaşdırır. Vəsaitlərin idarə olunması ilə bağlı elektron hesabatlılığı, habelə daxil olan və xərclənən vəsaitin məbləği və istiqamətləri ilə bağlı məlumatların Fondun rəsmi internet səhifəsində yerləşdirilməsini, məlumatların daim yenilənməsini təmin edir.

Agentliyin digər vəzifəsi isə Fond vasitəsi ilə həyata keçirilən tədbirlərə könüllüləri cəlb etmək, vəsaitindən istifadəyə dair Himayəçilik Şurasına təkliflər vermək, vəsaitin idarə edilməsinə dair yarımillik və illik hesabatları, habelə digər zəruri məlumatları şuraya təqdim etməkdir.

Gəlir və xərclərə Himayəçilik Şurası nəzarət etsə də, qərara gəlinib ki, nəinki şura, hətta bütün ölkə ictimaiyyəti, xaricdə yaşayan soydaşlarımız da baş verən proseslərdən xəbərdar olsun və Fondu təftiş edə bilsin. Ü.Mehdiyev deyir ki, bunun üçün “YAŞAT”ın internet portalını göstərmək yetərlidir. Çünki portalda hər iş şəffaf şəkildə görünür. Müraciətlərdən tutmuş yığılan vəsaitlərin xərclənmə istiqamətinədək bütün proseslər göz önündədir. Burada yardımlar edilən şəhid ailəsinin və ya qazimizin ailə üzvünün hər biri haqqında məlumat var. Toplanan vəsaitin hansı istiqamətlərə xərcləndiyi, kimlər üçün nə qədər vəsait ayrıldığı aydın şəkildə qeyd edilir. Eyni zamanda qazilərimizin reabilitasiyası üçün alınan tibbi avadanlıqlar, təyinatlar və xərclənən vəsaitin həcmi də olduğu kimi qeyd edilir.

“Bütün ayrılan vəsaitin təyinatı saytdakı “hesabatlar” bölməsində tam təfsilatı ilə qeyd edilir. İstənilən şəxs sayta daxil olub hansı şəhidin ailəsinə və ya ailə üzvünə nə qədər və nə üçün yardım göstərildiyinə diqqət edə bilər. Fonda ianə edən hər bir şəxs əmin ola bilər ki, onların ödədiyi vəsait ünvanına tam şəkildə çatır və doğru, dürüst, ədalətli şəkildə xərclənir”.







### Fondun komandası - milli qəhrəmanların, şəhidlərin övladları, qazilər...

Ülvi Mehdiyev Fondun komandası, yəni mərkəzi aparatının üzvləri barədə də məlumat verərək dedi ki, burada təmsil olunan şəxslər “ASAN xidmət”də çalışan müharibə qaziləri, milli qəhrəmanların, şəhidlərimizin ailə üzvləridirlər. Fondun rəhbəri Elvin Hüseynov “ASAN xidmət”in qazisidir.

Burada hımçinin Milli Qəhrəman İlqar Mirzəyevin oğlu Elvin Mirzəyev, Milli Qəhrəman Seymur Məmmədovun bacısı Aytən Seymurlu, Milli Qəhrəman Elman Hüseynovun oğlu Emin Hüseynli, şəhid Saleh Musayevin oğlu Şahin Musavi, şəhid Mehman Abdullayevin oğlu Elşən Abdullayev və digər qazilərimizin övladları çalışırlar.

Bu şəxslər “YAŞAT” Fondu ilə iş şöbəsinə ezam ediliblər. Bu qərarın verilməsi də təsadüfən olmayıb. Çünki qazini ancaq qazi yoldaşı, şəhid ailəsinin durumunu isə şəhidin övladı yaxşı başa düşə bilər.

Fondun mərkəzi aparatının əməkdaşlarına “ASAN könüllüləri” böyük kömək göstərirlər. Onlar ailələrlə görüşlərin keçirilməsində, sənədlərin toplanmasında fəal iştirak edirlər. “8110” Çağrı Mərkəzində isə 40 nəfərdən ibarət heyət operativ qaydada çağrılara cavab verir.

### Şəhid ailələrinin 14 mindən çox üzvü və yaralılarla görüş keçirilib

Fərmanla “YAŞAT” Fondu şəhid ailəsi və müharibə əlili statusu olanlara yardım göstərməlidir. Amma bu status hüquqi prosedurdur və bəzən onun təyini üçün müəyyən qədər vaxt tələb olunur. Ancaq Fond bu zamanı gözləməyib.

Ü.Mehdiyevin sözlərinə görə, fərmandan dərhal sonra Fond üzərinə düşən vəzifənin icrasına start verib: “Gözləmədik ki, vətəndaş gedib həmin statusu alıb sonra bizə müraciət etsin. Biz statusu almadan şəhidlərimizin ailələrinin qeydiyyatını apardıq. Əlilliyə səbəb ola biləcək ağır yaralılarımızı dərhal öhdəliyə götürdük. Yəni biz onların sağalıb, həm də status alıb Fonda müraciət etmələrini gözləsəydik, bəlkə də indi, yəni müharibədən 6 ay sonra bu yardımları göstərməyə başlayardıq. Bu da əlbəttə ki, heç də ürəkaçan olmazdı. Düşündük ki, əgər cənab Prezident Fondun idarəedilməsini agentiyimizə tapşırıbsa, bu həm şərəfli vəzifədir, həm də yüksək məsuliyyət tələb etdiyi üçün bunu layiqincə doğrultmalıyıq. Ona görə də bu kateqoriyadan olan ailələrimizin problemlərini vaxtında həll etməyə başladıq”.

Bəlli olur ki, Prezidentin məlum fərmanından dərhal sonra, iki həftə ərzində “ASAN könüllüləri” ilə regionlarda yerləşən “ASAN xidmət” mərkəzlərinin əməkdaşları birgə bütün şəhidlərimizin mənzillərini ziyarət ediblər. Qısa müddətdə şəhidlərimizin minlərlə ailə üzvü ilə görüşlər keçirilib. Buraya şəhidlərimizin valideyinləri, ailə üzvləri, bacı-qardaşları da daxildir. Onlarla keçirilən görüşlərdə problemləri öyrənilib, qeydiyyata alınıb. Ancaq bəzi ailələrin bir çox problemi olduğu üçün onların özlərinə seçim imkanı verilib: “Elə ailələr olurdu ki, bir çox problemləri mövcud idi. Biz də onlara seçim imkanı verirdik ki, daha çox hansı probleminin həll olunmasını istəyirlərsə, Fond onu həll etsin. Əgər biz bir ailənin 5-6 probemini həll etməli olsaydıq, başqa ailəyə yetişməyə bilərdik, çətinlik yaranardı. Ona görə də ailələrin birinci dərəcəli problemləri qeydə alındı və onların həlli istiqamətində müvafiq tədbirlər görüldü”, - deyə Ü.Mehdiyev bildirir.

### Mənzillər təmir edilir, kreditlər bağlanır, təhsil və tibb xərcləri ödənilir

Fond 4 istiqamət - mənzil şəraitinin yaxşılaşdırılması, tibbi xərclərin ödənilməsi, kreditlərin və digər borc öhdəliklərinin qarşılanması və təhsil xərclərinin ödənilməsi üzrə fəaliyyət göstərir. Bu istiqamətlər üzrə şəhid ailəsi üzvü və müharibə əlili statusu olanlara yardımlar edilir.

Yəni Fondun himayəyə götürdüyü ailələrin 4 istiqamət üzrə xərcləri qarşılanır. İndiyədək ödənilən xərclərin 43 faizi məişət şəraitinin yaxşılaşdırılması, 38 faizi tibbi xərclərin ödənilməsi, 16 faizi borc öhdəliklərinin qaytarılması, 1,56 faizi təhsil xərclərinin ödənilməsi və 0,81 faizi digər sahələri əhatə edir.

Məişət şəraitinin yaxşılaşdırılması istiqamətinə evlərin təmir-bərpa işlərinə, məişət avadanlıqlarının alınmasına, ailə üzvlərinin müalicə, tibbi əməliyyatı proseslərinə, borc öhdəliklərinə isə bank və bank olmayan təşkilatlara olan kreditlərin bağlanmasına, təhsil xərclərinin ödənilməsinə və digər borcların bağlanmasına vəsait ayrılır.

Kreditlərin ödənilməsində də vəsaitə qanaət etmək üçün təkliflər paketi hazırlanıb və müsbət nəticəsi də olub. Banklara, təhsil müəssisələrinə sorğu göndərilib. Ü.Mehdiyevin sözlərinə görə, həm banklara, həm də təhsil müəssisələrinə təklif edilib ki, şəhid ailəsi üzvünün kredit borcunu onlar da, Fond da bağlaya bilər. Əgər həmin təşkilat bu krediti bağlasa, qurumun və ya bankın adı “YAŞAT”ın portalında qeyd edilir. Razılaşan da olub, razılaşmayan da. Portala nəzər yetirdikdə bu bankların, təhsil müəssisələrinin adlarını görmək olar. Bu üsulla Fond 152 min manatadək vəsaitə qənaət edib.

Onu da deyək ki, əksər banklar, təhsil müəssisələri bu kateqoriyadan olan vətəndaşlarımıza yardım etmək marağında olublar. Bəziləri isə kreditləri bağlamadığı üçün vəsait Fond tərəfindən ödənilib.

### Bugünədək 89 qazimiz müalicə üçün Türkiyəyə göndərilib

Fond tibbi istiqamət üzrə çox böyük işlər görüb. Qazilərimizin, şəhidlərimizin ailə üzvlərinin müalicəsi, əməliyyatları üçün tələb olunan vəsait ayrılıb.

Ancaq bu proses də ciddi müzakirələrdən sonra alınan qərarlar əsasında həyata keçirilir. Yəni şəhid ailələri ilə keçirilən görüşlərdən tutmuş xaricə göndərilən qazilərimizin müalicəsinədək olan proseslərin hər biri haqqında geniş müzakirələrdən sonra qərar verilir.

Agentliyin rəhbəri deyir ki, Fonda daxil olan vəsaitin idarə edilməsində iki əsas prinsip var - şəffaflıq və vəsaitin səmərəli idarə edilməsi. İlk olaraq Fonda ianə edən vətəndaşlarımız əmin olmalıdırlar ki, bu vəsaitlər hara, kimə və hansı məqsəd üçün xərclənir. Bu vəsaitlər səmərəli xərclənməsə, daha çox xərclə az nəticə əldə etmək olar. Fondun məqsədi daha az xərclə böyük nəticə əldə etməkdir:

“Əgər Fond hər müraciət edən qazini Türkiyəyə göndərsəydi, heç də arzuolunan nəticə olmazdı. Yəni belə olan halda xaricə getməyə daha çox ehtiyacı olanlar kənarda qala bilərdi. Daha az ehtiyacı olanlar, yəni müalicəsi Bakıda mümkün ola bilənin xaricə getməsi israfçılıq yaradar və xərclər də daha çox çıxa bilərdi. Ona görə də qərarı xaricdən gələn həkimlərin ixtiyarına verdik. Onlar müayinə apardıqdan sonra kimin müalicəsinin, əməliyyatının harada həyata keçirilməsi barədə qərar verdilər. Bununla da səmərəliliyi təmin etmiş olduq”.

Türkiyədən Azərbaycana həkimlər dəvət edilib. Onlar yerli mütəxəssislərlə birgə hospitalda və digər tibb müəssisələrində olan 150-dən çox qazimizi müayinə ediblər. Müayinədən sonra hansı qazinin müalicəsinin Bakıda, hansının isə mütləq şəkildə Türkiyədə aparılmalı olduğu müəyyənləşib. Bugünədək 89 qazi müalicə üçün Türkiyəyə göndərilib. Onlardan 25-nin müalicə proseduru artıq uğurla yekunlaşıb və Vətənə qayıdıblar. Hazırda 64 qazimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdirilir. Növbəti mərhələdə də bir neçə qazimizin Türkiyəyə göndərilməsi planlaşdırılır. Qazilərimizin qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də Fond tərəfindən ödənilir.

### Dünyanın ən peşəkar hərbi oftalmoloqları Azərbaycana dəvət edilib

Fond göz xəsarətləri alan qazilərimiz üçün də xaricdən hərbi oftalmoloqlar dəvət edib. Hər kəs deyə bilər ki, axı ölkəmizdə yetərincə göz həkimi var, niyə xaricdən həkim gətirməliyik?

Ülvi Mehdiyev deyir ki, mülki göz həkimi ilə hərbi oftalmoloq arasında müəyyən fərq var. Mülki həkimlər gözdə müxtəlif xəstəliklərin müalicəsi, əməliyyatların aparılması üzrə ixtisaslaşsalar da, hərbi həkimlər zərbə, qəlpə yarası, göz toxumalarının yanması və digər ağır xəsarət almış gözlərin müalicəsi, əməliyyatı üzrə peşəkardırlar.

Buna görə də dünyada ən peşəkar hərbi həkim heyəti Azərbaycana dəvət edilib. İsraildən gələn 10 nəfərdən ibarət heyət 148 nəfər qazimizi müayinə edib. Onların bir qisminə protez göz qoyulub, bir qismi əməliyyat edilib. İki nəfərə İsraildən gətirilmiş buynuz qişası köçürülüb və onların görmə qabiliyyəti bərpa olunub. Hətta İsrail vətəndaşı olan bir qadın vəfat etmiş 55 yaşlı həyat yoldaşının gözünü Vətən müharibəsi qazisi Arif Hacıyevə bağışlayıb. Bir gözünün görmə qabiliyyəti tamamilə itən qazi üzərində keçirilən uğurlu əməliyyatdan sonra həmin gözün görmə qabiliyyəti bərpa edilib.

Ü.Mehdiyevin fikrincə, ən həssas məqam görmə qabiliyyətini itirən hərbçilərimizin müalicəsi və əməliyyat prosesləridir. Çünki müharibədə əlini, ayağını itirən hərbçilərimizə müasir protezlərin qoyulması mümkün olsa da, görmə qabiliyyətini itirənlərin yenidən gözlərinə həyat işığının gəlməsi ağır prosesdir. Ona görə də bununla bağlı müraciətlərin həlli üçün daha az xərc çıxmaqla kompleks işlərin görülməsi məqsədəuyğun hesab edilib.

İsraildən gələn hərbi oftalmoloqlar hətta hər iki gözünü itirən və daha görməyəcəyini düşünən qazilərimizə böyük ümidlər veriblər: “Onlar deyirlər ki, sənin gözünün görmə qabiliyyətinin bərpası üçün 2021-ci ilin dünya səhiyyəsinin imkanları yoxdur. Yəni bu o demək deyil ki, sən ömürlük görməyəcəksən. Yalnız bu dövr üçün imkan yoxdur. Ola bilər ki, iki-üç ildən sonra inkişaf etməkdə olan səhiyyədə bu imkanlar yaransın. Bu da həmin qazilərimizə çox böyük təsəlli olur”.

### Yeni doğulan şəhid övladlarının adına 5 min manatlıq hesab açılır

“YAŞAT”ın çox mühüm layihələrindən biri də Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün nəzərdə tutulan layihədir. Yeni doğulan şəhid övladlarının zəruri xərcləri Fond tərəfindən qarşılanır. Bu məqsədlə anaya 1000 manat vəsait təqdim olunur və dünyaya yeni göz açan körpənin adına bankda 5000 manatlıq hesab açılır. Həmin hesaba vəsait Fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür. Bu məbləğin üzərinə mütəmadi olaraq faiz toplanır və həmin şəhid övladı 18 yaşına çatandan sonra toplanan məbləği öz bank hesabından çıxara biləcək.

Bankla ana arasında bağlanmış müqaviləyə əsasən bəzi zəruri hallarda ana həmin vəsaiti daha tez çıxara və ya həmin məbləği istənilən valyutaya da dəyişə bilər.

İndiyədək 71 şəhidin övladının dünyaya gəlməsi ilə bağlı 1000 manat məbləğində zəruri xərcləri qarşılanıb və 31 şəhid övladının adına hesab açılıb.

Ülvi Mehdiyev deyir ki, banka yatırılan vəsait əgər ana tərəfindən uşağın 18 yaşına çatana qədər çıxarılmasa, həmin vəsait üzərinə faiz gəlməklə ən azı 20-25 min manatadək yüksələcək. Bu da 18 yaşlı gəncin həyata başlaması üçün yetərli məbləğ hesab olunur. Özünə avtomobil ala, əlindəki vəsaitlə hər hansısa biznes fəaliyyətinə başlaya, həmçinin ilkin ödəniş etməklə ipoteka krediti ilə mənzil ala bilər. Yəni bir gəncin müstəqil həyata atılarkən lazımi maliyyə dayanıqlığı üçün 25 min manat vəsait yetərli sayılır.

Fond təhsillə bağlı da layihə üzərində çalışır. Hazırda qanunvericiliyə əsasən şəhid övladları ali təhsil müəssisələrində ödənişsiz əsasda təhsil alırlar. Hazırda müəyyən özəl ali təhsil müəssisələrində, həmçinin xaricdəki bəzi ali məktəblərdə də şəhid övladlarının təhsil alması üçün müzakirələr aparılıb. Yəni onların təhsil haqları Fond tərəfindən qarşılanacaq: “İstəyirik ki, şəhid övladları dövrün tələblərinə aid ixtisaslara yiyələnmək, daha nüfuzlu ali məktəblərdə təhsil almaq imkanına da malik olsunlar, müəyyən kurslara cəlb olunsunlar”.

Fondun digər layihəsi isə şəhid ailəsi üzvlərinin, qazilərimizin işlə təmin olunması ilə bağlıdır. Belə ki, Fondun internet portalında baza yaradılacaq. İş axtaran şəhid övladının, qazinin yaşı, ixtisası, diplomu, iş təcrübəsi orada toplanacaq. Dövlət müəssisələri, digər şirkətlər işçi axtararkən bu sistemə daxil olub seçim edərək həmin şəhidin övladını işə dəvət edə bilərlər.

Ülvi Mehdiyevin sözlərinə görə, bununla bağlı qanunvericiliyə də dəyişikliklər nəzərdə tutulur. Belə ki, hansı müəssisə bu kateqoriyadan olan şəxsləri işə götürərsə, bəzi üstünlüklər qazanacaq. Məsələn, ödədiyi vergi faizi aşağı düşə bilər və ya hansısa güzəştlərə sahiblənər.

### Hesabatlılıq - indiyədək Fonda 36 milyon 850 min manat vəsait yığılıb

Fondun ümumi hesabatlılığına gəlincə Ülvi Mehdiyev dedi ki, keçirilən bütün görüşlərdən sonra 2881 şəhid ailəsinin, 3016 yaralının ailə üzvü qeydiyyata alınıb. Ümumilikdə isə 14 min 491 nəfər şəhid ailəsinin üzvü və yaralılarımız ilə görüş keçirilib. Onlardan 6368 nəfərinin problemi Fond tərəfindən öhdəliyə götürülüb. Toplanan bütün məlumatlar Fondda yaradılan Data sistemdə yerləşdirilib.

İndiyədək Fonda 36 milyon 850 min 841 manat 92 qəpik ianə toplanıb. Bunların 16 milyon 554 min 607 manat 06 qəpiyi fiziki şəxslər tərəfindən, 20 milyon 296 min 234 manat 86 qəpiyi isə hüquqi şəxslər tərəfindən ödənilən vəsaitdir.

Bu vəsaitin 21 milyon 696 min 584 manat 65 qəpiyi müvafiq istiqamətlər üzrə xərclənib, 15 milyon 154 min 257 manat 27 qəpik qalıq var.

İndiyədək mənzil-məişət şəraitinin yaxşılaşdırılması üzrə 15 milyon 263 min 084 manat 50 qəpik, tibbi xərclərin ödənilməsi üzrə 3 milyon 186 min 363 manat 52 qəpik, kreditlərin və digər borc öhdəliklərinin qarşılanması üçün 3 milyon 222 min 781 manat 09 qəpik və təhsil xərclərinin ödənilməsi üçün 24 min 355 manat 54 qəpik vəsait ayrılıb.

### Vətəndaş məmnunluğu 98 faizdir

Bütün bayramlarda şəhidlərimizin ailələrini ziyarət edən Fond əməkdaşları Novruz bayramında da bunu icra ediblər. Bayram günlərində şəhidlərimizin ailə üzvlərinə sovqatlar göndərilib.

Göründüyü kimi, “YAŞAT” üzərinə düşən öhdəliyi ən yüksək səviyyədə yerinə yetirmək üçün lazım olan imkanlardan yararlanmaqdadır. Şəffaflıq prinsipi ilə işləyən Fondun fəaliyyətindən vətəndaş məmnunluğunun olması bunu deməyə əsas verir. “ASAN xidmət” mərkəzlərində belə bir qayda var. Mərkəzdəki xidmətlərdən yararlanan şəxslərdən məmnunluqla bağlı sorğu alınır. Hazırda bu, 99,5 faiz təşkil edir. Eyni prinsip “YAŞAT” Fondunda da tətbiq edilir. Şəhid ailələrinin üzvləri, qazilərimizlə keçirilən görüşlərdən sonra sorğu alınır və hazırda bu göstərici 98 faizdən çoxdur.

Bir sözlə, Vətən yolunda canını fəda edərək şəhidlik zirvəsinə ucalan igidlərimiz və görən gözlərini, vuran qollarını, yeriyən ayaqlarını şəhid verən qazilərimiz fəxarət ünvanlarımızdır. Onların əmanətlərini qorumaq, miraslarını yaşatmaq isə hər birimizin borcudur.

*Rəşad BAXŞƏLİYEV,*
*“Azərbaycan”*

# Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının Direktorlar Şurasına üzv seçildi

İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının Baş Assambleyasının 37-ci iclası keçirilib. İclasda qurumun Direktorlar Şurasına yeni üzvlərin təqdimatına baxılıb.

Təqdimat əsasında keçirilən səsvermədə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının Direktorlar Şurasına üzv seçilib. Palatanın Baş katibi Yusif Xələvi çıxışında bildirib ki, Azərbaycanla əməkdaşlıqdan məmnundurlar və Azərbaycan Sahibkarlar Konfederasiyası ilə yeni layihələrin həyata keçirilməsi perspektivləri üzərində işləyirlər.

Qeyd edək ki, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Millli Konfederasiyası 2015-ci ildən bəri Palatanın üzvüdür və Azərbaycan biznes icmasını İslam Palatasında təmsil edən yeganə təşkilatdır.

Həmçinin 37-ci iclasda iştirak edən dövlətlər eyni zamanda təşkilata daxil olan fondun hesablarının Palatanın hesablarından ayrılaraq müstəqil şəkildə formalaşdırılması, eləcə də Qəzzada baş verən hadisələrə münasibətlərini ifadə ediblər.

Məlumat üçün bildirək ki, İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatası 1979-cu ildə təsis edilmişdir. İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatası, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) bağlı qurumudur və islam ölkələrindən 57 üzvü öz sıralarında birləşdirir.

Gələcəkdə ticarət, informasiya texnologiyaları, sığorta, təkrarsığorta, bankçılıq, üzv ölkələrdə investisiya imkanları və müştərək müəssisələrin təşviqi sahələrində daha sıx əməkdaşlığı gücləndirməyi hədəfləyir.

***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən Sumqayıt Kimya Sənaye Parkının 167.66, 94.13 hektar və Pirallahı Sənaye Parkının ərazilərindəki nasosxanalarda istismarda olan nasosların və elektrik mühərriklərinin təmiri işlərinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının 8 may 2021-ci il tarixli qərarına əsasən, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs Abdullayev Əli Eldar oğlu qalib elan edilmişdir.

Qalib fərdi sahibkarla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# Azərbaycanlı alim Sankt-Peterburqda keçirilən elmi konfransda və sərgidə iştirak edib





Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Artilleriya, mühəndis və rabitə qoşunları hərbi-tarix muzeyində 12-14 may 2021-ci il tarixində keçirilən X yubiley beynəlxalq elmi-praktiki konfransda "QƏSR" Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq İctimai Birliyi sədrinin birinci müavini, İCOMAM Beynəlxalq Komitəsinin İdarə Heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov iştirak etmişdir.

Azərbaycanlı alim "Xanlıq dövründə dövlətçilik atributlarında islam rəmzləri" adlı məruzəsində, xanlıqların dövlət qurumu kimi yaranmasını və ictimai-siyasi fəaliyyətində dövlətçilik atributlarına malik olmasını bildirmişdir. Azərbaycanın qədim şəhərləri olan Gəncə, Naxçıvan, Bakı və Şəki xanlıqlarının dövlət və döyüş bayraqlarında təsvir edilmiş rəmzlərdə və ərəbdilli yazılarında islam mədəniyyətinin izləri haqqında təqdimat keçirilmişdir. P.Gözəlov rəsmi qonaqlara Azərbaycanın dövlətçilik tarixinə aid kitablarını, "Azərbaycan xanlıqlarının bayraqları dövlətçilik tarixində mənbə kimi" (rus dilində) və "Naxçıvan xanlığına məxsus üç bayraq" (ingilis dilində) təqdim etmişdir.

Tədbir iştirakçılarının diqqətinə çatdırılmışdır ki, sözügedən Artilleriya Hərbi-Tarix, Mühəndis və Rabitə Qoşunları Muzeyinin fondlarından P.Gözəlov doktorluq dissertasiyasının mövzusu çərçivəsində 2015-ci ildə Azərbaycanın dövlətçilik tarixini əyani olaraq sübut edən Naxçıvan xanlığının dövlət, döyüş və müttəfiq bayraqları aşkar edib və hazırda bayraqlardan ikisi Naxçıvan şəhərindəki Dövlət Bayraq Muzeyində və Xan sarayında Tarix Muzeyində, biri isə Bakı şəhərində Milli Azərbaycan Tarixi Muzeyində nümayiş olunur.

P.Gözəlov Qarabağ xanlığının bir dövlət qurumu kimi fəaliyyətində ermənilərin heç bir iştirakının olmamasını təsdiq edən rəsmi məlumatları tədbir iştirakçılarına çatdıraraq bildirmişdir ki, hətta Qarabağ xanlığı Rusiya İmperiyasının tərkibinə daxil olduqdan sonra da xanlığa köklü Azərbaycan xanlarının nəslindən nümayəndə təyin olunmuş və Qarabağ xanlığında İbrahimxəlil xanın oğlu Mehdiqulu xanın hakimiyyəti Rusiya İmperatoru tərəfindən təsdiq edilmişdir. Konfransda 27 sentyabr 2020-ci il tarixində, cəbhə bölgəsində Ermənistanın təxribatına cavab olaraq dünya hərb tarixində ilk dəfə 28 il ərzində işğal altında qalmış Azərbaycan torpaqlarının Ali Baş Komandan, Prezident İlham Əliyevin siyasi iradəsi, qətiyyətli və taktiki addımları nəticəsində azad edilməsi və 44 günlük Vətən müharibəsi haqqında beynəlxalq konfrans iştirakçılarına geniş məlumat verilmişdir.

Pərvin Gözəlov həmçinin Rusiyanın mədəni həyatında böyük əhəmiyyət kəsb edən sərkərdə, müqəddəs Aleksandr Nevskinin 800 illiyinə həsr edilmiş sərginin təntənəli açılış mərasimində iştirak etmişdir.

Sankt-Peterburq şəhərindəki Artilleriya mühəndis və rabitə qoşunları hərbi-tarix muzeyinin direktoru tərəfindən Pərvin Gözəlov "Müharibə və silah: yeni tədqiqatlar və materiallar" beynəlxalq praktiki konfranslarında çoxillik fəal iştirakına görə təşəkkürnamə ilə təltif edilmişdir.

***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə respublikanın rayonları üzrə əhalinin özünüməşğulluğunun təmin olunması ilə bağlı fotoaparatlar üçün obyektivlərin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı : 100.00 (bir yüz) manat**
**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**
**VÖEN: 1300144711**
**Bank: "Kapital Bank" ASC 28 May filialı**
**KOD: 200123**
**Müxbir Hesabı: AZ37NABZ01350100000000001944**
**VÖEN: 9900003611**
**SWIFT AIIBAZ2X**
**H/HESABI: AZ47AIIB38060019440817168112**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 01.05.2021-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Əgər təsdiq edilibsə 2020-ci üzrə, əks halda 2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 01.05.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir. Təsdiqedici sənədlərə əlavə olaraq Əsas şərtlər toplusunun Əlavə-3-ə uyğun olaraq məlumatlar hazırlanmalı və təqdim edilməlidir);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 11.06.2021-ci il saat 15:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 22.06.2021-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 23.06.2021-ci il saat 15:00-da açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# *Leyla ABDULLAYEVA:* "Hindistan XİN-in Ermənistan-Azərbaycan sərhədindəki son hadisələrlə bağlı açıqlaması məsələnin müxtəlif cəhətləri hərtərəfli araşdırılmadan verilib"

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Leyla Abdullayeva Hindistan Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsinin Ermənistan-Azərbaycan sərhədində baş verən son hadisələrlə bağlı açıqlamasını şərh edib.




AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva bununla bağlı deyib: "İlk növbədə, vurğulamaq istərdim ki, Ermənistanla Azərbaycan arasındakı sərhəd məsələlərinin əsas səbəbi Ermənistanın 2020-ci il noyabrınadək Azərbaycan ərazilərini işğal etməsidir. Belə ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlərini pozan Ermənistandır. Azərbaycan isə yalnız beynəlxalq səviyyədə tanınmış sərhədlərini bərpa edir. Rəsmi şəkildə bəyan edildiyi kimi, Azərbaycan özünün ərazi bütövlüyü çərçivəsində həyata keçirilən sərhəd mühafizə sisteminin gücləndirilməsi işini davam etdirir və bu proses Ermənistanla Azərbaycan arasındakı sərhəd xəttini təyin edən, tərəflərin hər birində olan xəritələr əsasında həyata keçirilir. Son aylar ərzində tərəflər arasında sərhəd məsələləri üzrə fikir ayrılıqları olub və bunların hamısı üçtərəfli bəyanatların tərəfləri arasında danışıqlar yolu ilə həll edilib.

İkincisi, son 30 ildə Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılması ilə bağlı hər hansı çağırış etməyən Hindistan Xarici İşlər Nazirliyinin indi qüvvələrin geri çəkilməsindən danışması olduqca qəribədir. Aydındır ki, bu son açıqlama məsələnin müxtəlif cəhətləri hərtərəfli araşdırılmadan verilib.

Xatırlatmaq istərdim ki, Azərbaycan həmişə dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına çağırıb və çağırmaqda davam edir. İnanırıq ki, qarşılıqlı hörmət və bu prinsiplərə ciddi riayət edilməsi, hər hansı bir mübahisənin həllinin və sözün əsl mənasında, yaxşı qonşuluq münasibətləri qurmağın yeganə yoludur.

Onu da qeyd etməliyəm ki, Qoşulmama Hərəkatının hazırkı sədri kimi Azərbaycan Bandunq prinsiplərinin təşviqini özünün sədrlik prioritetlərindən biri kimi müəyyən etmişdir. Bu prinsiplər beynəlxalq münasibətlərdə ədalət və bərabərliyin inkişafına töhfə verir və beynəlxalq hüquq normaları və prinsiplərinə hörməti təmin edir. Qoşulmama Hərəkatı çərçivəsində birliyə zərər verən hər hansı cəhdlər qəbuledilməzdir".

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs

### *açıq tender elan edir*

Elektron satınalmada iddiaçı qismində satınalmaların predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər. Tender iştirakçıları **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları və ya asan imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Tender 1- LOT üzrə keçirilir:
LOT-1: Təmizlik işlərinin satın alınması.

İştirak haqqının ödənilməsi yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün Portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

İştirak haqqı:
LOT-1:150.00 (bir yüz əlli manat 00 qəpik) manat
İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının tender təklifi (tender təklifi zərflərinin açıldığı gündən sonra azı 30 (otuz) bank günü təşkil etməlidir);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektlərinə uyğun olması haqqında sənəd;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazələrə malik olması.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 11.06.2021-ci il saat 10:00-a qədər, tender təklifi və tender təklifinin bank təminatını isə 22.06.2021-ci il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçının təklifləri 23.06.2021-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər. İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi Gəncə DOST Mərkəzinin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması işlərinin satın alınmasına dair 15 aprel 2021-ci il tarixdə elan olunmuş müsabiqə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinin tələbinə əsasən iddiaçıların sayı 3-dən az olduğu səbəbindən tenderin davamından imtina edilir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi tərəfindən ISO beynəlxalq standartları üzrə təlimlərin keçirilməsi və sertifikatların satın alınması məqsədilə elan edilən açıq tender prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 7 may 2021-ci il qərarına əsasən "Bureau de Qualite" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

İmişli Suvarma Sistemləri İdarəsi tərəfindən 13 aprel 2021-ci il tarixdə İmişli Suvarma Sistemləri İdarəsinin balansında olan suvarma kanallarının lildən təmizlənməsi işlərinin satın alınması məqsədilə elektron formada keçirilmiş açıq tender prosedurlarının yekun protokolunun nəticəsinə əsasən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin SUMQAYIT MELİOSERVİS İdarəsi qalib elan olunmuşdur.

Qalib təşkilatla 19 may 2021-ci il tarixdə 279996,65 manat məbləğində müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

İmişli Suvarma Sistemləri İdarəsi tərəfindən 13 aprel 2021-ci il tarixdə Cari təmir üçün mal-materialların satın alınması məqsədilə elektron formada keçirilmiş açıq tender prosedurlarının yekun protokolunun nəticəsinə əsasən fiziki şəxs Əkbərov Rahib Ağamusa oğlu qalib elan olunmuşdur.

Qalib şəxslə 19 may 2021-ci il tarixdə 388314,09 manat məbləğində müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 15.04.2021-ci il tarixdə Elektrik mühərrikləri üçün sargı materialların satın alınmasına dair açıq tender üsulu ilə keçirilmiş müsabiqədə "MİX PRO" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 19.05.2021-ci il tarixdə ƏDV daxil 19 890,08 (on doqquz min səkkiz yüz doxsan manat 08 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında kovrolit örtüyün mexaniki üsulla sulu-kimyəvi təmizlənməsi üzrə xidmətin satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 03 may 2021-ci il tarixli qərarına əsasən "BEST CLEANING COMPANY" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Satınalmalar komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan İnvestisiya Holdinqi üçün telefoniya, telekommunikasiya, şəbəkə avadanlıqlarının alınması və quraşdırılması xidmətinin, proqram təminatı və antivirus proqramlarının satın alınması üzrə 20 aprel 2021-ci il tarixdə elan edilmiş təkliflər sorğusu prosedurunun qalibi "Bakinity Distribution" MMC (Bakı şəhəri, Nərimanov rayonu, Ziya Bünyadov, ev 86B,1969-cu məhəllə, mənzil qapı 1) olmuşdur.

Qalib təşkilatla 19 may 2021-ci il tarixdə 280553.50 (iki yüz səksən min beş yüz əli üç manat 50 qəpik) manat məbləğində satınalma müqaviləsi bağlanılmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan İnvestisiya Holdinqi üçün kompüterlər, printerlər və sair avadanlıqların və onların quraşdırılması xidmətlərinin satın alınması üzrə 20 aprel 2021-ci il tarixdə elan edilmiş təkliflər sorğusu prosedurunun qalibi "Bakinity Distribution" MMC (Bakı şəhəri, Nərimanov rayonu, Ziya Bünyadov, ev 86B,1969-cu məhəllə, mənzil qapı 1) olmuşdur.

Qalib təşkilatla 19 may 2021-ci il tarixdə 73216.64 (yetmiş üç min iki yüz on altı manat 64 qəpik) manat məbləğində satınalma müqaviləsi bağlanılmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan İnvestisiya Holdinqi üçün kəsintisiz qida avadanlıqlarının və onların quraşdırılması xidmətlərinin satın alınması üzrə 20 aprel 2021-ci il tarixdə elan edilmiş təkliflər sorğusu prosedurunun qalibi "Bakinity Distribution" MMC (Bakı şəhəri, Nərimanov rayonu, Ziya Bünyadov, ev 86B,1969-cu məhəllə, mənzil qapı 1) olmuşdur.

Qalib təşkilatla 19 may 2021-ci il tarixdə 15463.90 (on beş min dörd yüz altmış üç manat 90 qəpik) manat məbləğində satınalma müqaviləsi bağlanılmışdır.

*Tender komissiyası*

Bank of Baku
SİZƏ YAXIN BANKÇILIQ

## "BANK OF BAKU" ASC-nin səhmdarlarının nəzərinə

06 iyul 2021-ci il tarixdə saat 15:00-da "Bank of Baku" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının Ümumi Yığıncağının növbəti iclası keçiriləcək.

Ünvan: Bankın Baş İdarəsi, Bakı AZ1069, Atatürk prospekti, 42.

Telefon: 447 00 55.

İclasın gündəliyi bildirişlə birgə səhmdarlara göndərilib.

Gündəlik üzrə materialları göstərilən ünvandan əldə etmək olar.

## К сведению акционеров ОАО "BANK OF BAKU"

06 июля 2021-го года в 15:00 состоится очередное заседание Общего Собрания Акционеров Открытого Акционерного Общества "Bank of Baku".

Адрес: Головной Офис Банка, Баку AZ1069, проспект Ататюрк, 42.

Телефон: 447 00 55.

Повестка заседания и уведомление высланы акционерам.

Материалы по повестке можно получить по указанному адресу.

*İdarə heyəti*

## Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı mətbəə xərclərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 21 may 2021-ci il saat 17:00-dək qəbul olunur.

Kotirovka sorğusunun təklif zərfləri 24 may 2021-ci il saat 11:00-da Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 80 ünvanında açılacaqdır.

Maraqlanan qurumlar əlaqələndirici şəxs Tural Tağızadə ilə (012) 493-88-14 və (050) 288-06-19 nömrəli telefonlarla və ya t_tagizadeh@ombudsman.az email ünvanı vasitəsilə əlaqə saxlaya bilərlər.

*Tender komissiyası*

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

## B İ L D İ R İ Ş

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən cəmiyyətin əməkdaşlarının xarici ezamiyyələri ilə bağlı aviabiletlərin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının 5 may 2021-ci il tarixli qərarına əsasən, "İdeal Tours" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## Azərbaycan Respublikası Baş Prokurorluğu geyim formasının satın alınması üzrə təkliflər sorğusu proseduru kecirir

Prosedur 24 may 2021-ci il saat 17:00-da keçiriləcəkdir.
Əlaqələndirici şəxs: Pərviz Adgözəlov
Telefon: (012)492-64-80

*Tender komissiyası*

## Laçın Suvarma Sistemləri İdarəsi 2021-ci il üçün *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti 31.12.2021-ci il tarixə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət edə bilərsiniz. Əlaqələndirici şəxs: Zeynal Nəsibov

Ünvan: Ağcabədi rayon Taxtakörpü qəsəbəsi

Email: **tebiet.ismailov@mail.ru**

telefon: 050-372-29-49, iş: 02127-7-82-12

Tender aşağıdakı məqsəd üzrə keçiriləcəkdir

LOT-4: Əsaslı təmir işləri

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT-4 üzrə 50 (əlli) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

**Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Bank rekvizitləri:**
**Təşkilat: Laçın Suvarma Sistemləri İdarəsi**
**Hüquqi ünvan: Ağcabədi rayon Taxtakörpü qəsəbəsi.**
**VÖEN: 3400081411**
**H/H: AZ74CTRE00000000000002355404**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T BIK: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);
3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);
4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;

4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;

4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Malgöndərənlər (podratçılar) 1-ci və 4-cü bəndlərdə qeyd olunan sənədləri 11.06.2021-ci il saat 11:00-a kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər. Malgöndərənlər (podratçılar) öz tender təkliflərini 22.06.2021-ci il saat 18:00-a qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri 23.06.2021-ci il saat 11:00-da elektron Portal vasitəsilə açılacaqdır.

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Mərkəzi Bankında istifadə olunan server, kompüter və rabitə avadanlıqları üçün ehtiyat hissələrinin satın alınması üzrə açıq tender elan edir

Azərbaycan Respublikasının Mərkəzi Bankı istifadə olunan server, kompüter və rabitə avadanlıqları üçün ehtiyat hissələrinin satın alınması ilə bağlı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru **25 iyun 2021-ci il tarixdə saat 15:00-da** dövlət satınalmalarının vahid internet Portalında **(https://etender.gov.az/)** (bundan sonra - Portal) keçiriləcəkdir.

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Maraqlı şəxslər tenderdə iştirak etmək üçün "Asan Ödəniş" sistemi vasitəsilə Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 100 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə Əsas şərtlər toplusunu əldə edə bilərlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BIK NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *Azərbaycan dilində tender təklifi (tender təklifi 11 avqust 2021-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının tender predmeti üzrə ən azı 2 (iki) illik iş təcrübəsini əks etdirən məlumatlar (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu);*
- *iddiaçının ixtisas uyğunluğuna dair tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar.*

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını ən geci **24 iyun 2021-ci il saat 18:00-a** qədər, digər tələb olunan sənədləri isə ən geci **16 iyun 2021-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Malların təqdim edilməsi müddəti: satınalma müqaviləsi imzalandığı gündən etibarən Sifarişçinin sifarişi əsasında 1 (bir) il müddətində.

Qiymətləndirmə meyarları: qiymət və zəmanət müddəti.

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız Portal vasitəsilə verilir.

Tender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

"Bakı Mətbəəsi" ASC-nin kollektivi Cavid Zeynalova atası, tanınmış şair-naşir

**CAVAD ZEYNALLININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun sektor müdiri, tarix üzrə fəlsəfə doktoru

**ABUZƏR İBRAHİM OĞLU ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5250
Sifariş 865
Qiyməti 40 qəpik